# "Birlikdə şahid olacağıq"
## Ərdoğan: “Bir neçə aya inflyasiya azalmağa başlayacaq”



**”Türk lirəsinin məzənnəsi üçün yeni tənzimləmələr olacaq”.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında bildirib.

Ərdoğan deyib ki, türk lirəsi aktivlərinin yeni valyuta tələbi yaratmayacaq şəkildə istifadəsini təmin edəcək sistem tətbiq olunacaq. Belə ki, Türkiyədə insanların banka qoyduğu türk lirəsi xarici valyutadan (ABŞ dollarından) üstünlük təşkil edərsə, bu onlara daha çox gəlir gətirəcək:

**(Davamı səh.4)**

# Bərdədə iki uşaq çayda boğulub

**Bərdədə iki azyaşlı uşaq çayda boğularaq ölüb.**

Trend xəbər verir ki, hadisə Bərdə şəhərində baş verib.

2012-ci il təvəllüdlü Qurbanov İbrahim Zöhrab oğlu və 2014-cü il təvəllüdlü Qurbanov Allahverdi Vasif oğlu Tərtər çayına düşərək boğulublar. Hər iki uşaq sudan çıxarılsa da, onların həyatını xilas etmək mümkün olmayıb.

*Şahidlərin dediyinə görə, uşaqlar valideynləri ilə birlikdə çay sahilində yerləşən şadlıq evlərindən birində keçirilən toy mərasiminə gedibmiş.*


№ 233 (551), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

21 dekabr 2021-ci il (çərşənbə axşamı)




# Beşdən çox uşağı olub sosial müavinət alan qadınların sayı 2500 nəfərə yaxındır
## Onların uşaqlarının sayı isə 10 mindir

**Azərbaycanda beşdən çox uşağı olan və sosial müavinət alan qadınların sayı açıqlanıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, ölkədə beşdən çox uşağı olub sosial müavinət alan qadınların sayı 2500 nəfərə yaxındır, onların uşaqlarının sayı isə 10 mindir.

*Qeyd edək ki, Prezident İlham Əliyevin dünənki Fərmanı ilə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği hər uşaq üçün 55 manatdan 70 manata qaldırılıb. Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.*

# Danışıqlar nəticəsində iki hərbçimiz qaytarıldı
## Onlar əlverişsiz hava şəraitində yolu azaraq qarşı tərəfə keçib



**Dekabrın 18-də gündüz saatlarında Laçın rayonunun dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynov Teymur Ələddin oğlu və əsgər Mustafayev Murad Mikayıl oğlu əlverişsiz hava şəraitində yolu azaraq qarşı tərəfə keçib.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, aparılmış danışıqlar nəticəsində hərbi qulluqçuların dünən geri qaytarılması təmin olunub.

Onlar hazırda Şuşa şəhərindədirlər. Hərbçilərimizin sağlıq durumunda heç bir problem yoxdur.



# "Media haqqında" yeni qanun layihəsi ikinci oxunuşda qəbul edildi
## Müzakirələr zamanı deputatlar müxtəlif fikir və rəylərini bildiriblər

**Milli Məclisdə ”Media haqqında” yeni qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.**

Qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

Layihə 9 fəsil, 78 maddədən ibarətdir. Müzakirələr zamanı deputatlar müxtəlif fikir və rəylərini bildiriblər. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə qoyularaq qəbul edilib.

# İran XİN: "Ərdoğanın səfərinə hazırlıq görülür"



**“Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İrana səfərinə hazırlıqlar görülür”.** ”Report” ”Mehr”ə agentliyinə istinadən xəbər verir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə dekabrın 20-də keçirdiyi həftəlik brifinqdə bildirb. O, Türkiyə ilə İran arasında uzunmüddətli əməkdaşlığın son vəziyyəti ilə bağlı bunları deyib: ”Bu plan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Tehrana səfəri zamanı gündəliyə gətirilib. Prezident Rəcəb Tayyib Ərdoğanın İrana səfəri üçün hazırlıq işləri görülür. Müqavilə üçün mətnlər hazır olarsa. bu ziyarət zamanı imzalanacaq”.



# Baltikyanı ölkələrə 175 milyon dollar məbləğində yardım ayrılıb

**ABŞ-ın gələn il üçün müdafiə büdcəsindən Baltikyanı ölkələrin müdafiə qabiliyyətini gücləndirmək məqsədilə 175 milyon dollar məbləğində vəsait ayrılıb.**

Azərtac Baltikyanı ölkələrin mətbuatına istinadla xəbər verir ki, ABŞ Konqresinin Ali Palatası yardım paketini təsdiq edib.

”Baltikyanı regionun təhlükəsizliyi NATO-nun təhlükəsizliyi nöqteyi-nəzərindən vacibdir. Bu addımlar müttəfiqlərin təhlükəsizliyinin təmin edilməsi baxımından olduqca vacibdir”, - deyə Senatın qərarında deyilir.

# Pilotlar küləyə qarşı düzgün eniş etməyiblər
## Qəzaya uğrayan helikopterin “qara qutu”su bəzi mətləblərə işıq saldı



**Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin ”Qaraheybət” aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğramasının səbəbləri ictimaiyyətə açıqlanıb.**




Bununla bağlı dünən Respublika Baş Prokurorluğunun rəhbər heyəti brifinq keçirib. Vurğulanıb ki, ”qara qutu” Baş Prokurorluğun və Çex Respublikasının Prokurorluğunun əməkdaşlarının iştirakı ilə müvafiq istehsalçı şirkətin mütəxəssisləri tərəfindən açılıb.

(səh.2)

# Rusiya aviaşirkəti Füzuliyə uçuşlara başlayır

**Rusiyanın Federal Hava Nəqliyyatı Agentliyi Azərbaycana uçuşlar həyata keçirmək üçün üç hava yolu şirkətinə müvafiq icazə verib.**




”İrAero” şirkəti həftədə iki dəfə Moskva şəhərindən Füzuli Beynəlxalq Hava Limanına və Zaqatalaya uçuşlar həyata keçirəcək. Həmçinin ”AzurAir” şirkəti Rusiyanın Samara, Rostov, Krasnodar, Kazan şəhərlərindən həftədə iki dəfə, ”Nord Wind” şirkəti də Soçi şəhərindən həftədə 7 dəfə Bakıya uçuş həyata keçirmək hüququ əldə edib.

# Yoluxma sayı 577 nəfərə düşüb
## 9 nəfər vəfat edib, 672 nəfər isə sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 577 yeni yoluxma faktı qeydə alınıb, 672 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 610 895 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 587 338 nəfər müalicə olunaraq sağalıb, 8 208 nəfər vəfat edib, aktiv xəstə sayı 15349 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 777, ötən müddət ərzində isə ümumilikdə 5 757 381 test aparılıb.*



# “Media dövlətin, millətin taleyini həll edir"
## Vahid Əhmədov: “Ona görə də kompromisə gedilsə, yaxşı olar”

(səh.3)

# Uşaqlara qarşı cinayət törədənlər ömürlük həbs olunmalıdır



**Fazil Mustafa:** “Mən cəzaların sərtləşdirilməsinin tərəfdarıyam. Bunun mexanizmi işlənib hazırlanmalıdır”

(səh.3)






# Pilotlar küləyə qarşı düzgün eniş etməyiblər

## Qəzaya uğrayan helikopterin "qara qutu"su bəzi mətləblərə işıq saldı

**Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğramasının səbəbləri ictimaiyyətə açıqlanıb. Bununla bağlı dünən Respublika Baş Prokurorluğunun rəhbər heyəti brifinq keçirib. Vurğulanıb ki, "qara qutu" Baş Prokurorluğun və Çex Respublikasının Prokurorluğunun əməkdaşlarının iştirakı ilə müvafiq istehsalçı şirkətin mütəxəssisləri tərəfindən açılıb.**

Uçuşa hazırlıq prosesindən qəza baş verən ana qədər olan bütün parametrlər üzrə məlumatlar, o cümlədən idarəetmə ilə əlaqədar qeydə alınmış səs yazıları Azərbaycan tərəfinə təqdim edilib. Baş prokurorun birinci müavini Elçin Məmmədov deyib ki, pilotların eniş zamanı küləyin istiqamətini və sürətini nəzərə almayaraq helikopterin istismar qaydalarına zidd olaraq idarəetmədə yol verdikləri kobud səhvlər helikopterin qəzaya uğramasına səbəb olub: "Aparılmış ilkin məhkəmə-tibbi müayinəsinə əsasən qəza nəticəsində həlak olmuş şəxslərin ölüm səbəbi müxtəlif dərəcəli bədən xəsarətləri alması nəticəsində yaranmış travmatik şok olub. Qəzaya uğramış helikopterin zərbə ilə yerə dəyməsi səbəbindən helikopterin sol qapısı və alın şüşəsi yerindən çıxmış, zərbələrin təsirindən helikopterdə olan şəxslərdən 4 nəfər çölə atılıb, onlardan 2-si aldıqları xəsarətlərin ağırlığından hadisə yerində ölüb, digər 2-si isə sağlamlığa az ağır zərərvurmaya aid müxtəlif xəsarətlər alıblar". Baş prokurorun müavini qeyd edib ki, hazırda cinayət işi üzrə istintaq davam etdirilir: "İstintaqın detalları ilə bağlı digər həmkarlarım tərəfindən ətraflı məlumat veriləcək".

**"Helikopterin uçuşu və təlimlərə cəlbiylə əlaqədar qanun pozuntusu müəyyən edilməyib"**

**Elçin Məmmədov vurğulayıb ki, helikopterin qəzaya uğraması ilə bağlı daxil olan məlumat əsasında peşəkar əməkdaşlar tərəfindən dərhal hadisə yerinə müfəssəl baxışın keçirilməsi təmin olunub:** "Helikopterin qəzaya uğramasının səbəblərinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edən "qara qutu"nun hadisə yerinə baxış zamanı müvafiq texniki və prosessual normalara uyğun olaraq götürülməsi tərəfimizdən həyata keçirilib". O bildirib ki, istintaqın hazırkı mərhələsində cinayət işi üzrə çoxsaylı şahidlərin dindirilməsi təmin olunub, eyni zamanda, intensiv istintaq hərəkətləri həyata keçirilib, müxtəlif ekspertizalar təyin olunub və digər tədqiqatlar aparılıb: "Qəza baş verən gün helikopterin uçuşu və təlimlərə cəlb edilməsi ilə əlaqədar istintaq zamanı hər hansı qanun pozuntusu müəyyən edilməyib. Belə ki, helikopter qüvvədə olan normativ sənədlərə uyğun olaraq əvvəlcədən təsdiq edilmiş plana əsasən uçuş heyətinin tərkibi müəyyənləşdirilməklə təlimlərə cəlb edilib ki, bu prosesdə də hər hansı normativ tələblərin pozulması halı aşkar edilməyib".

**"Enmə əməliyyatı istehsalçı zavodun təlimatlarına əsasən aparılmayıb"**

Baş Prokurorluğun İstintaq idarəsinin rəis müavini, helikopter qəzası ilə bağlı yaradılan İstintaq qrupunun rəhbəri Sənan Paşayev deyib ki, təlim günü küləyin sürəti, hava məlumatları öyrənilib. İstintaq sənədləri də göstərir ki, həmin gün ərazidə küləyin sürəti saniyədə 16-17 metr təşkil edib. Küləyin sürəti qadağan edici həcmdə olmayıb. O qeyd edib ki, helikopterin marşrutu üzrə hərəkətində qanun pozuntusu aşkar olunmayıb: "Pilotlar küləyə qarşı eniş etməli idilər. Pilotlar enmə əməliyyatını istehsalçı zavodun təlimatlarına əsasən aparmayıb. Belə ki, pilotlar küləyin axını istiqamətində olan zaman enmə əməliyyatı hərəkətə keçirdikləri üçün qəza baş verib. Enmə əməliyyatı başqa istiqamətdə olsaydı, bu hadisə baş verməyəcəkdi".

**"Qəzaya 25 saniyəyə qalan müddətə qədər helikopterdə heç bir nasazlıq olmayıb"**

**Sənan Paşayev bildirib ki, helikopterin istismar müddəti 35 ildir:** "2020-ci ildə helikopter təmirə göndərilib. 2021-ci ildə təmirdən sonra sınaq uçuşları keçirilib və təhvil verilib. Helikopterin texniki göstərişlərində nasazlıq olmayıb. 2013-cü ildə helikopterin "qara qutu"su yenilənib. O, daha çox parametrləri qeydə alınan sistemlə əvəzlənib. Müqavilə əsasında Çexiya Respublikasında "qara qutu" yenilənib və təhvil verilib. Çexiya və Azərbaycanın Baş Prokurorluqları tərəfindən qəzadan sonra "qara qutu" açılıb və göstəricilər istintaqa təhvil verilib. 30 noyabr tarixində qəzaya qədər helikopter 17 dəqiqə 24 saniyə uçuş həyata keçirib. Uçuşa hazırlıq və uçuş müddəti helikopterdə heç bir nasazlıq müşahidə edilməyib və istintaq zamanı da heç bir nüans aşkarlanmayıb. Helikopterin enmə əməliyyatını yerinə yetirən zaman qəzaya uğraması müəyyən edilib. Qəzaya 25 saniyəyə qalan müddətə qədər heç bir nasazlıq olmayıb. Küləyin istiqamətini nəzərə almadan, uçuş metodikasına uyğun olmayan addımlara yol verildiyindən qəza baş verib. Pilotlar hadisədən yayınmağa cəhd etsə də, hündürlüyün sürətlə itirilməsi hadisəni qaçılmaz edib. "Qara qutu"dakı məlumatların araşdırılması zamanı çəkilən fotoşəkillər də təqdim ediləcək".

**İsmayıl**

# Prezident İlham Əliyev təsdiqlədi

## Azərbaycan, Gürcüstan və Türkiyə arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitə yaradılır



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol"un təsdiq edilməsi haqqında Fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, 2021-ci il oktyabrın 8-də İzmir şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol" təsdiq edilsin.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə onun müddəalarının həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan və Türkiyə Respublikası tərəflərinə bildiriş göndərmək tapşırılır.

# Deputatlar özlərinə ömürlük diplomatik pasport istəyirlər

## Spiker də razılıq verdi, məsələyə baxılacaq

**Parlamentin dünənki iclasında bir çox deputat onlara diplomatik pasportun verilməsini istəyiblər. Millət vəkili Sabir Rüstəmxanlı deyib ki, dünyanın bir çox ölkəsində diplomatik pasport ömürlük verilir. Deputat təklif edib ki, millət vəkillərinə də ömürlük diplomatik pasport verilsin:**



"Diplomatik pasport millət vəkillərinə seçildiyi müddətə verilir. Millət vəkili seçilməyəndə onun diplomatik pasportunun əlindən alınmaması üçün qanunlara dəyişiklik edə bilərik. Bu barədə düşünmək olar. Hətta bundan əvvəl deputat olan, amma indi seçilməyən deputatlara diplomatik pasportları qaytarılsın".

Deputat Fəzail Ağamalı da təklifi dəstəkləyib: "Xahiş edirəm bu məsələni müzakirəyə çıxaraq. Bu, çox ədalətli yanaşma olardı".

**Deputat Məlahət İbrahimqızı da təklifə dəstək verib:** "Bəlkə də müəyyən limiti burada nəzərə ala bilərik. Bütün ölkələrdə bu var. Azərbaycanda da bu məsələ müsbət həll oluna bilər".

**Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, deputat Əli Hüseynli isə bildirib ki, bu, bir sıra ölkələrdə var:** "Amma bir sıra ölkələrdə yoxdur. Bu format Azərbaycanda uzun illər mövcuddur. Diplomatik pasport hazırda bizim fəaliyyətimiz dövründə verilir. Bütün millət vəkilləri bu məsələni qaldırarsa, komitədə baxıla bilər".

**Spiker Sahibə Qafarova isə qeyd edib ki, artıq bir çox deputat məsələni qaldırıb:** "Ona görə bunu nəzərə almaq olar".

**İsmayıl**

# Brüsseldə iki qələbə...



"Beləliklə, Avropa masasında münaqişənin bitdiyi reallığı qəbul olundu"

**Avropa Birliyi Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə daha 10 nəfər erməni hərbi qulluqçu Ermənistana təhvil verilib.**

Təhvil verilmiş ermənilər noyabrın 16-da Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılan şəxslər olub. Xatırladaq ki, dekabrın əvvəlində 10 nəfər erməni İrəvana verilərək, əvəzində minalanmış bütün ərazilərin xəritələri alınmışdı. Budəfəki prosesdə rəsmi Bakının nəyin qarşılığında erməni hərbi qulluqçularını təhvil verməsi ilə bağlı rəsmi məlumat yoxdur. Hər şeyə rəğmən, Azərbaycan tərəfinin bu addımı rəsmi Bakının humanizm prinsiplərinə sadiqliyinin növbəti təzahürü kimi dəyərləndirilir və Qərb ölkələri tərəfindən alqışlanır. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Tvitter hesabında Azərbaycanın bu addımını humanitar məsələlərin həlli prosesində mühüm jest adlandırıb. AB rəsmisi həm iki ölkənin rəhbəri ilə uğurlu görüşlər üçün Azərbaycan və Ermənistanla işləməyə davam edəcəklərini vurğulayıb. Fransa və ABŞ rəhbərliyi də erməni hərbçilərin İrəvana təhvil verilməsindən məmnunluq duyduqlarını bəyan ediblər. Prezident Emmanuel Makron və ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays bunu irəliyə doğru addım kimi qiymətləndiriblər.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, mina xəritələrinin dəqiq olması belə hamısının alınmasından sonra 10 erməni hərbçinin qaytarılması müqabilində Bakının nə əldə etdiyi aktuallaşır. Analitikin fikrincə, əslində Bakı istədiyini Brüssel görüşündə alıb:** "Görüşdən öncə Rusiyanın vasitəçiliyi ilə 10 erməniyə qarşı bütün xəritələr alındı. Aİ-nin Bakıda saxlanılan ermənilərin bir neçəsinin qaytarılmasına vasitəçilik edəcəyi gözlənilən idi. Amma bunun qarşılığında nə veriləcəyi məsələsinə dair suallar vardı. Brüssel görüşündən qabaq yazmışdım ki, Bakı görüşünün nəticələrinin, eləcə də bundan sonrakı bütün bəyanatların məhz post-münaqişə dövrü ilə bağlı olmasını istəyə və bununla Avropa masasında münaqişənin bitdiyi reallığını qəbul etdirə bilər. Azərbaycan Brüsseldə bunların ikisinə də nail oldu. Müzakirə edilən məsələlər və görüşün nəticələrinə dair verilən bəyanatlar post-münaqişə dövrü ilə bağlı idi. Qarabağın adı isə ümumiyyətlə çəkilmədi. Beləliklə, Avropa masasında münaqişənin bitdiyi reallığı qəbul olundu. Görünür, bu nəticəyə qarşılıq rəsmi Bakı 10 erməninin qaytarılmasını təmin edərək Avropa İttifaqına böyük siyasi jest etdi".

**İsmayıl Qocayev**

# 1,5 milyard manat vəsait ayrılıb

## Sosial islahatların növbəti mərhələsi start götürür

İsmayıl Qocayev

**Azərbaycanda vətəndaş rifahının təminatı, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət başçısının bu günlərdə imzaladığı yeni Fərman və sərəncamlar bu istiqamətdə ardıcıl və geniş miqyas alan sosial islahatların növbəti mərhələsinə başlanmasını təmin etdi.**

2022-ci ilin sosial islahatları ölkə rəhbərinin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən reallaşdırılır. Yeni ildən tətbiq ediləcək islahatlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar 2,1 milyondan çox şəxsi əhatə edəcək. Prezidentin sərəncamları əlilliyi olan şəxslər və digər kateqoriyalardan ibarət ümumilikdə 732 min şəxsin, o cümlədən 132 min doktorant və tələbəni əhatə edərək müavinət və təqaüd formasında onlara yönələn sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir. Bu artımlar üçün illik əlavə 200 milyon manat ayrılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, 2022-ci ilin 1 yanvarından yaşa görə müavinət 130 manatdan 180 manata çatdırılır. 2019-cu ilin əvvəlində bu müavinət 73 manat idi. Ümumilikdə 2,5 dəfə artırılmaqla gələn ilin əvvəlindən 180 manat təşkil edəcək. Bununla da 2022-ci ildə pensiyaçılar üçün nəzərdə tutulan yaşayış minimumunu üstələyəcək. Ailə başçısını itirməyə görə müavinət 80 manatdan 100 manata çatdırılır. Müddətli hərbi xidmətdə olan hərbçilərin uşaqlarına müavinət üç il əvvəl 68 manat, 2019-cu ilin aprelindən 100 manata çatdırılıb. Yeni Fərmanla 2022-ci ilin əvvəlindən 120 manat təşkil edəcək. O cümlədən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət 100 manatdan 120 manata çatdırılır. Beşdən çox uşağı olan qadınlara aylıq müavinət 55 manatdan 70 manata qaldırılır. Dəfn üçün müavinətin məbləği də 300 manatdan 350 manata çatdırılır. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, gələn il 2 milyondan artıq vətəndaş sosial islahatlardan bəhrələnəcək. Nazir müavininin sözlərinə görə, sosial islahatların davamı olacaq və bu qərarlar Azərbaycanda əhalinin həssas qruplarının sosial rifahının yüksəldilməsinə xidmət edəcək.



Əlavə olaraq qeyd edib ki, Sərəncama əsasən, elmlər doktoru hazırlığı üzrə doktorantlara təyin olunan təqaüdlər 300 manatdan 360 manata, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manatdan 216 manata, ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə təyin olunan təqaüdlər 170 manatdan 204 manata yüksəldilir.

İstənilən şəraitdə əhalinin sosial durumu diqqət mərkəzində olacaq

Müharibə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanlar pensiya almadıqda müavinət və təqaüd formasında ayda I dərəcə üzrə 700 manat, II dərəcə üzrə 530, III dərəcə üzrə 420 manat alacaqlar. Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial ödəniş 2019-cu ilin əvvəlində cəmi 82 manat idisə, gələn ilin əvvəlindən həmin məbləğdən 3,4 dəfə çox olmaqla onlar üçün müavinət (200 manat) və təqaüd (80 manat) formasında aylıq 280 manat sosial ödəniş ediləcək.

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin 2021-ci il 17 dekabr tarixdə imzaladığı Sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Minimum əməkhaqqı artımı dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, ümumən 800 min işçini əhatə edəcək. Son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, əməyin leqallaşdırılmasını da stimullaşdıracaq. Gələn il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu 43 faiz üstələyəcək. Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir.

**Prezidentin əhalinin sosial rifahını artırmaq üçün atdığı addımları "Şərq"ə dəyərləndirən millət vəkili Ceyhun Məmmədov deyib ki, dövlət başçısının müvafiq Sərəncamları ölkə rəhbərinin Azərbaycan vətəndaşlarına, xüsusi kateqoriyalı insanlara göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür.** Deputatın sözlərinə görə, bütün Fərman və Sərəncamların qayəsi vətəndaşların sosial rifahını yüksəltmək, onların həyat şəraitini daha da yaxşılaşdırmaqdır: "Bu istiqamətdə ardıcıl addımların atılması bilavasitə cənab Prezidentin diqqətindədir. Davamlı olaraq verilən qərarlar bunun bariz nümunəsidir. Sərəncamlar ümumilikdə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbəni əhatə edəcək. Nəzərə alaq ki, gələn il Qarabağda quruculuq və bərpa işləri maksimum səviyyədə həyata keçiriləcək. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinə kifayət qədər böyük vəsaitin sərf olunduğu hamıya məlumdur. Bütün bunların fonunda dövlət başçısının birbaşa təşəbbüsü ilə belə bir addımın atılması, insanların rifah halının hər şeydən öndə durduğunu göstərir. Həm də ona dəlalət edir ki, istənilən şəraitdə əhalinin, ələlxüsus müəyyən kateqoriyalı insanların sosial durumu daim diqqət mərkəzində olacaq. Heç şübhəsiz, vətəndaşlarımız gələn il ərzində də dövlətin diqqət və qayğısını öz üzərlərində hiss edəcəklər".

# “Media dövlətin, millətin taleyini həll edir"

## Vahid Əhmədov: “Ona görə də kompromisə gedilsə, yaxşı olar”



İsmayıl Qocayev

**Milli Məclisin dünənki iclasında ”Media haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Milli Məclis sədri Sahibə Qafarova deyib ki, parlamentdə ”Media haqqında” qanun layihəsi ilə bağlı daha bir dinləmə keçiriləcək:**

”Bizim yenə də ”Media haqqında” qanun layihəsi ilə bağlı böyük dinləməmiz keçirilməlidir”. Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun da dinləmədə iştirakını zəruri sayan spiker bildirib ki, 2 böyük dinləmə və komitələrin birgə keçirdiyi dinləmələr kimi yeni dinləmədə də istəyən hər kəsin iştirakı təmin edilməlidir: ”Keçən dəfə dinləməni onlayn keçirməyə məcbur olduq. Bu PSR testlərlə bağlı idi. Ancaq növbəti dinləmənin canlı keçirilməsinə çalışacağıq”. Çıxış edən deputatlar qanun layihəsi ilə bağlı fikirlərini bölüşüblər.

**“Jurnalist ömürlük işdir, ona 3 illik vəsiqə verə bilməzsən”**

**Millət vəkili Sabir Rüstəmxanlı deyib ki, ölkədə ilk müstəqil qəzeti o çıxarıb:** ”5 il mətbuat naziri olmuşam. O dövrdə ilk qanunu biz hazırlamışıq. Lakin qanun yaradıcılığında heç məni yada salmayıblar. Bu qanun daha çox daxili mediaya hesablanıb. Halbuki, Azərbaycan üçün əsas təhlükə xarici mediadandır. Ona görə daxildəki mətbuatı indiyə qədər olan qanunlar idarə edirdi. Amma daxildəki mətbuat təhlükə deyil. Jurnalistikanı müqaviləyə bağlamaq olmaz, jurnalist peşədir. Qəzetlərə köşə yazan yazarlar var. Sən onu jurnalist saymayacaqsan?! Jurnalist ömürlük işdir, ona 3 illik vəsiqə verə bilməzsən. Jurnalist ömürlük jurnalistdir, istəyir işləsin, istəyir işləməsin”.

**“Saytların arxivi Bill Qeytsin əlindədir”**

**Millət vəkili Aqil Abbas bildirib ki, sayt bizim əlimizdə deyil və sayt arxiv sayılmır:** ”Saytı istənilən vaxt bağlaya, istənilən materialı çıxarda bilərsən. Saytların arxivi Bill Qeytsin əlindədir. Qəzetlər isə arxivdir. Qəzetin satışı üçün respublika ərazisində şərait yoxdur. Küçədə qəzet satışı qadağan olunub. Bu qəzet camaata necə satılsın? Qəzetin birini də mən buraxıram. Qəzetə abunə yazılan yoxdur, dövlət qadağan edib. Azərbaycanda heç kəs reklam vermir. Çünki Azərbaycanda bir sement zavodu var, bir qida təşkilatı var. Rəqabət yoxdur. Reklam toyxana ilə yasxana idi, indi o da yoxdur. Reklam vəsaitləri qəzetlər, saytlar arasında bölünməlidir. Reklam bazarı olmadığı müddətdə qəzetlər dayanır. Sağ olsun Azərbaycan hökuməti, qəzeti dəstəkləyir. Yoxsa qəzetlər bağlanar gedər”.

**“Media haqqında” qanunun işləməsi üçün maliyyə lazımdır”**

**Millət vəkili Vahid Əhmədov vurğulayıb ki, qanun layihəsində medianın maliyyələşdirilməsi və reklam bazarının mediaya uyğunlaşdırılması yolları da əksini tapmalıdır:** ”Qanunun işləməsi üçün maliyyə lazımdır. Bu qanunda medianın haradan maliyyələşəcəyi qeyd olunmalıdır. Reyestr məsələsinin məcburi olduğu qanun layihəsindən görünür. Buna nə ehtiyac var?”.

Deputat bildirib ki, media ciddi subyektlərdən biridir: ”Media dövlətin, millətin taleyini həll edir. Ona görə də kompromisə gedilsə, yaxşı olar”.

**“Media haqqında” qanunda bu maddənin olması yersizdir”**

**Deputat Musa Quliyev tütündən istifadə prosesinə dair maddənin ”Media haqqında” qanun layihəsindən çıxarılmasını təklif edib:** ”Qanun layihəsində 39-cu maddədə audiovizual yayımçının vəzifələri göstərilib. Bu sırada 39.1.2-ci maddə də yer alır. Bu maddəyə əsasən, tütün istifadəsi prosesinin açıq nümayiş etdirildiyi proqramlarda tütündən istifadənin sağlamlığa və ətraf mühitə zərərli təsiri barədə xüsusi xəbərdaredici məlumatların verilməsini təmin etmək audiovizual yayımçının vəzifəsidir”. Deputat bildirib ki, ”Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunda tütün məhsullarının görüntüsünü yaymaq televiziyalarda da, tamaşalarda da qadağan olunur: ”Media haqqında” qanunda bu maddənin olması yersizdir. Ona görə bu maddə ya çıxarılmalıdır, əgər çıxarılmayacaqsa, bilsinlər ki, bu bizim qəbul etdiyimiz qanunla ziddiyyət təşkil edir”.



# Gürcüstanın regional platformada iştirakı qaçılmazdır

## Gec-tez Tbilisi Ankara və Bakının çağırışlarına müsbət cavab verəcək

**İslam Əməkdaşlıq Təşkilatının İslamabadda keçirilən növbədənkənar iclasında Azərbaycan və Türkiyə xarici işlər nazirləri - Ceyhun Bayramov və Mevlud Çavuşoğlu görüşüblər. İki qardaş ölkənin strateji münasibətlərindən danışan XİN rəhbərləri ”3+3” formatında görüşün nəticələrini də müzakirə ediblər.**

Nazirlər regional əməkdaşlıq mexanizminin irəli aparılmasının zəruriliyini vurğulayıblar. Tərəflər növbəti aylarda bu istiqamətdə atıla biləcək addımlardan da danışıblar. Eləcə də bölgədəki cari vəziyyət, postmünaqişə kontekstində bölgə ölkələri arasında münasibətlərin normallaşdırılması ilə bağlı fikir mübadiləsi aparıblar. Türkiyənin xarici işlər naziri bildirib ki, Moskvada ”3+3” formatında keçirilən ilk görüşün davamı da gələcək: ”Növbəti görüşü Türkiyədə keçirməyi planlaşdırırıq. İnanırıq ki, Gürcüstan da həmin görüşdə iştirak edəcək”. Xatırladaq ki, Gürcüstan Moskvada ”3+3” formatında keçirilən görüşün ilk toplantısına qatılmayıb. Tbilisi hökuməti Rusiyanın təmsil olunduğu platformalarda yer almayacağını bəyan edib.

**”Altılıq” platformasının reallaşması istiqamətində atılan addımları ”Şərq”ə dəyərləndirən politoloq İlqar Vəlizadə deyib ki, Cənubi Qafqaz ölkələri müxtəlif formalarda bir-biri ilə əməkdaşlıq edə bilər.** Yetər ki, ortada nəticə olsun. Analitikin fikrincə, ilkin görüşlərin məqsədi regional əməkdaşlığın formasını müəyyən etməkdir: ”Region ölkələri arasında danışıqlar, müzakirələr davam edir. Bu və ya digər formada bölgədə gedən müzakirələr Gürcüstanın da maraqlarına toxunacaq. Gürcüstanın regional əməkdaşlıqda iştirakı dolayı yolla da çox vacibdir. Gürcüstan müxtəlif enerji və nəqliyyat layihələrinin əsas iştirakçısıdır, tranzit ölkədir. Bu baxımdan Gürcüstanın regional platformalarda təmsil olunması qaçılmazdır. Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsi ilə Rusiya və Türkiyə arasında yük daşımaları həyata keçirilir. Burada Tbilisinin maraqları danılmazdır. Düşünürəm ki, gec-tez Gürcüstan hökuməti Ankara və Bakının çağırışlarına müsbət cavab verəcək”.

**İsmayıl Qocayev**

# Bu, sadəcə başlanğıcdır

## Aviareyslərin açılması hələ əlaqələrin bərpası anlamına gəlmir



“Ermənistan Azərbaycanın da, Türkiyənin də ərazi bütövlüyünü, suverenliyini rəsmən tanımalıdır. Əgər bunları edərsə, diplomatik münasibətlərin qurulması reallığa çevrilə bilər”

İsmayıl Qocayev

**Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində ilk addımını atıb. Xarici İşlər Nazirliyinin sözçüsü Vahan Hunanyan parlamentin vitse-spikeri Ruben Rubinyanın Türkiyə ilə dialoq çərçivəsində Ermənistandan xüsusi nümayəndə olacağını bəyan edib.**

Qeyd edək ki, bundan əvvəl Türkiyənin ABŞ-dakı keçmiş səfiri Sərdar Kılıç ölkənin Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi təyin edilib. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ermənistanla etimadı artıran əlaqələr davam etdirilir. Nazir deyib ki, birbaşa əlaqələr üçün ən qısa zamanda xüsusi nümayəndələr bir araya gələcək. Çavuşoğlu əlavə edib ki, yaxın gələcəkdə Ermənistana birbaşa təyyarə reysləri fəaliyyətə başlayacaq: ”Daha öncə ”Atlas Global” şirkətləri uçuşları təmin edirdi, hazırda bəzi şirkətlərin müraciətləri olub. Nəqliyyat və İnfrastruktur Nazirliyi və Mülki Aviasiya Baş İdarəsi ilə bərabər bu istiqamətdə fəaliyyətləri davam edir, bu müraciətlərə baxılır”. Türkiyə XİN başçısı bir daha vurğulayıb ki, Ermənistanla bağlı verilən bütün qərarlarda Azərbaycanla birgə məsləhətləşmələr aparılır və qərar verilir: ”Bizim arzumuz Cənubi Qafqazda sülhün bərqərar olması, Zəngəzur dəhlizinin açılmasıdır”.

Məlumat üçün bildirək ki, Ruben Rubinyan vitse-spiker olmazdan öncə qısa müddətli xarici işlər nazirinin müavini olub. Nikol Paşinyana yaxın olan Rubinyan 2017-2018-ci illərdə Türkiyədə fəaliyyət göstərib. Hrant Dink Fondunda işləyib və Sabançı Universitetində araşdırmalar aparıb. Hətta müharibədən sonra vitse-spiker seçiləndə erməni müxalifəti ona qarşı ”türk agenti” ittihamı irəli sürüb. Türkiyədəki erməni icması ilə yaxın münasibətləri var və hazırda erməni icması Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını dəstəkləyir.

Ekspertlərin fikrincə, Nikolun bu misiyanı ”türklərin dilindən anlayan” Rubenə həvalə etməsi normallaşma müzakirələrindən daha qazanclı çıxmaq istəyindən irəli gəlir. Çünki İrəvan heç bir şərt olmadan danışıqlar aparmaq istəyir. Ankara isə müzakirəni Bakının maraqları çərçivəsində quracağını deyir. Sərhədlərin açılmasını istəyən Ermənistan Ankaranın istəyi ilə böyük ölçüdə razılaşmaq məcburiyyətindədir.

**Politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında bildirib ki, Ankara-İrəvan münasibətlərinin normallaşması Azərbaycan-Ermənistan əlaqələrinin düzəlməsindən asılı olacaq. Analitikə görə, əgər Bakının istək və tələbləri İrəvan tərəfindən qarşılanarsa, o zaman Ermənistan Türkiyə ilə normal əməkdaşlıqdan, sərhədlərin açılmasından danışa bilər:** ”Ermənilər təkcə Azərbaycana deyil, Türkiyə torpaqlarına da iddia ediblər. İrəvan bundan birmənalı imtina etməlidir. Ermənistanın gerbində əks olunmuş Ağrı dağı Türkiyənin qanuni əraziləri daxilindədir. Bu məqam açıq-aşkar Türkiyəyə rəsmən ərazi iddiasıdır. Ermənistanın dövlət konstitusiyasında Türkiyənin 6 vilayətinə də rəsmi iddia var. Bunların hamısı Masada İrəvanın qarşısına qoyulmalıdır. Ermənilər türklərə duyduqları nifrət və düşmənçilikdən birdəfəlik vaz keçməlidir, Azərbaycanın da, Türkiyənin də ərazi bütövlüyünü, suverenliyini rəsmən tanımalıdır. Əgər bunları edərsə, diplomatik münasibətlərin qurulması reallığa çevrilə bilər. Azərbaycan və Türkiyənin Ermənistanla münasibətləri normal müstəviyə keçməlidir. Ancaq bu, birbaşa Ermənistan hökumətinin mövqeyindən, siyasətindən asılıdır. İrəvan indiki yanaşmasını davam etdirsə, münasibətlərin bərpası mümkün olmayacaq. Aviareyslərin açılması hələ əlaqələrin bərpası anlamına gəlmir. Bu, sadəcə başlanğıcdır və davamlı olması üçün İrəvan qətiyyətli addımlar atmalıdır”.

Məlahət Rzayeva

**Gürcüstanda azyaşlılara qarşı cinsi və digər zorakılıq hallarına qarşı cinayətlərə görə cəzalar sərtləşdirilir. “Şərq” xəbər verir ki, bununla əlaqədar ölkənin Daxili İşlər Nazirliyi yeni qanun layihəsi hazırlayıb.**



# Uşaqlara qarşı cinayət törədənlər ömürlük həbs olunmalıdır

Nazirliyin məlumatında bildirilir ki, son 9 ayda Gürcüstanda 152 nəfər seksual zorakılığa məruz qalıb. Onlardan da 114-ü azyaşlı uşaqlar olub. Nazirlik bunun qarşısını almaq üçün qanunvericiliyə dəyişikliklə bağlı yeni qanun layihəsi hazırlayıb. Yeni layihədə cinsi zorakılığa görə cəzalar daha da sərtləşdirilir. Bu cinayəti törədən şəxslər həbs cəzasına məhkum edilməklə yanaşı, onların bir çox hüquqları məhdudlaşdırılacaq. Azyaşlılara qarşı bu cinayətləri törətmiş şəxslər isə ömürlük həbs cəzasına məhkum ediləcəklər. Nazirlikdən bildirilib ki, artıq parlament qanun layihəsini birinci oxunuşda qəbul edib.



**Fazil Mustafa:** “Mən cəzaların sərtləşdirilməsinin tərəfdarıyam. Bunun mexanizmi işlənib hazırlanmalıdır”



**Səidə Qocamanlı:** “Biz bu dəyişikliyi gərək Gürcüstan Parlamentindən əvvəl qəbul edəydik”

**Millət vəkili, fəlsəfə doktoru Fazil Mustafa cinsi zorakılığa qarşı cəzaların sərtləşdirilməsinin tərəfdarı olduğunu dedi:**

- Azyaşlılara, yetkinlik yaşına çatmayanlara, qadınlara, həmçinin hamilə qadınlara qarşı zorakılıq, cinsi istismar halları Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ağır cinayətlərə aid edilir və bu halları törədənlərə qarşı da ağır cəzalar nəzərdə tutulur. Lakin hesab edirəm ki, bizdə də bu kimi hallarla bağlı cəzalar daha da sərtləşdirilməlidir. Uşaqlara qarşı cinayət törədənlər ömürlük həbs cəzasına məhkum edilməlidir. Son illərdə müşahidə edirik ki, qadınlara qarşı zorakılıq əməlləri artır. Azyaşlılara, yetkinlik yaşına çatmayanlara qarşı da zorakılıq, cinsi istismar halları artıb. Uşaqlar istismar edilir, həm əməyin istismarı baş verir, həm cinsi istismar. Yetkinlik yaşına çatmayanların hamilə qalması dəhşətlidir. Burda ağır cinayət əməli öz yerində, bu həm də cəmiyyət üçün mənəvi, əxlaqi problemdir. Bu baxımdan mən cəzaların sərtləşdirilməsinin tərəfdarıyam. Bunun mexanizmi işlənib hazırlanmalıdır. Cəzaların sərtləşdirilməsi bəzi insanları çəkindirə bilər. Uşaqlara, azyaşlılara qarşı cinayət işlədikdə, ömürlük həbs olunacaqlarını bilsələr, qorxub, çəkinəcəklər. Bəzən belə fikir irəli sürülür ki, cəzalar cinayətləri azaltmır. Belə deyil, hesab edirəm ki, cəmiyyətin təhlükəsizliyi, dəyərlərin müdafiəsi üçün cəzaları sərtləşdirmək lazımdır.

**İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi Bürosunun rəhbəri Səidə Qocamanlı da hesab edir ki, qadınlara, azyaşlılara və yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq cinayətləri ən sərt şəkildə cəzalandırılmalıdır:**

- Biz bu dəyişikliyi gərək Gürcüstan Parlamentindən əvvəl qəbul edəydik. Qanunvericiliyə mütləq dəyişiklik edilməlidir və qadınlara, azyaşlılara və yetkinlik yaşına çatmayanlara qarşı bütün növ zorakılıq cinayətləri ən sərt şəkildə cəzalandırılmalıdır. Və bu cinayəti törədənlər ömürlük həbs cəzasına məhkum edilməlidir. Gürcüstan da Avropa Şurasının üzvüdür, amma qanun layihəsinə belə bir dəyişiklik edir. Bu, qadın, uşaq və ümumiyyətlə, insan hüquqlarına hörmətdir. Cəzaların sərtləşdirilməsi qadınların, uşaqların, yeniyetmə qızlarımızın sağlamlığının, psixikalarının müdafiəsi deməkdir. Nə qədər gənc qadınlar var, işə düzəlmək istəyəndə işəgötürən tərəfindən çirkin təkliflərlə üzləşir. Nə qədər azyaşlı balalar əməyin istismarına cəlb edilir. Yetkinlik yaşına çatmamış körpə qızlarımız çirkin cinayətlərin qurbanı olur. Dəhşətlisi budur ki, çox zaman belə cinayətlər yaxın qohumlar tərəfindən törədilir. Hələ də məhkəmə istintaqı aparılan cinayət hadisələri var. Dağıstandan bura işləməyə gəlmiş bir qadını 2 uşağı ilə tövlədə saxlayıblar, qul kimi davranıblar onunla. Xarab olmuş toyuq əti veriblər yeməyə. Bu günlərdə bu iş üzrə məhkəmə keçirildi və qadına zülm edən şəxsə 7 il azadlıqdan məhrumetmə cəzası verildi. 7 ilin 3-4 ilini çəkəcək, sonra da azadlığa çıxacaq. Belə hallar təkrarlanmasın, azyaşlıların hüquqları qorunsun deyə biz də cəzaları sərtləşdirməliyik. Milli Məclis bunu çoxdan etməliydi. Gecikirik.

İsmayıl Qocayev

# Kreditlərlə bağlı cəmiyyətə şəffaf hesabat açıqlanmır

## Millət vəkili Maliyyə Nazirliyinə irad tutdu

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Deputatlar 34 məsələni müzakirə ediblər. İclasda cari məsələlərlə bağlı da çıxışlar edilib, təklif və iradlar səsləndirilib.**

**"Məsələyə aydınlıq gətirilməsə, bu tip layihələrin əleyhinə səs verəcəm"**

**Millət vəkili Razi Nurullayev Maliyyə Nazirliyinin zəmanətli kreditlər barədə məlumat verməsini istəyib.** Deputat deyib ki, dövlət müəssisələrinin Azərbaycan hökumətinin zəmanəti ilə aldığı kreditlərin effektivliyi və ya qeyri-səmərəliliyi barədə şəxsən onda heç bir məlumat yoxdur. Millət vəkili qeyd edib ki, ümumiyyətlə, ən ciddi məsələlərdən biri bu günə qədər alınan kreditlərlə bağlı müfəssəl, şəffaf və görülən işləri əks etdirən hesabatın cəmiyyətə açıqlanmamasıdır: "Bilmək istərdik ki, kredit alan müəssisələrin nə qədər borcu var, o kreditlərlə hansı işlər görülüb, hansı yarımçıq qalıb və ya kökündən edilməyib. Borcun miqdarı barədə də mərtəbəli və dolaşıq məlumatlar verilir. Üzümü Maliyyə Nazirliyinə tutub deyirəm ki, bizə bu günə qədər götürülən kreditlərin səmərəliliyi və ya əksi barədə məlumatı təqdim edin. Bu məsələyə aydınlıq gətirilməsə, bütün bu tip layihələrin əleyhinə səs verəcəm. Həmkarlarımı da bu məsələnin ciddiliyinə varmağa səsləyirəm. Səmərəsini və görülən işlərin şəffaf hesabatını bilmədiyiniz işdə iştirakçı olmayaq. Borc verən maliyyə institutlarının apardığı monitorinq də həqiqəti əks etdirmir. Hər bir kredit bu xalqın cibindən, mayasından gedir, onun üçün də hesabatlılığı ən yüksək səviyyədə olmalıdır".



"Borc verən maliyyə institutlarının apardığı monitorinq də həqiqəti əks etdirmir"

**"Bərdədə kanalizasiya sisteminin olmaması yoluxucu xəstəliklərə zəmin yaradır"**

**Millət vəkili Fatma Yıldırım deyib ki, Bərdə şəhərində kanalizasiya sistemi yoxdur. Deputat bildirib ki, bu gün ölkəmiz dünyaya yayılmış koronavirus infeksiyasına qarşı qətiyyətlə mübarizə aparmaqdadır:** "Prezident İlham Əliyevin tapşırığına əsasən, pandemiyanın yayılmaması üçün bütün dövlət strukturları səfərbər olunub. Belə çətin dövrdə 200 mindən çox əhalisi olan Bərdə rayonunda və onun mərkəzi olan Bərdə şəhərində kanalizasiya sisteminin olmaması sakinlərdə çox ciddi narazılıq doğurur. Hazırda ərazi üzrə həm fərdi evlərin, həm də çoxmərtəbəli yaşayış binalarının çirkab suları yeraltı quyulara doldurulur. Vaxtaşırı çirkab sularının texnika ilə daşınması, bəzi hallarda daşaraq yollara dağılması bir çox yoluxucu xəstəliyin yayılmasına zəmin yaradır. İnsan sağlamlığına mənfi təsir göstərən belə halların tezliklə aradan qaldırılması olduqca önəmlidir. Bilirik ki, regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində bir sıra rayon mərkəzlərində kanalizasiya sistemləri qurulub və bu işləri "Azərsu" Açıq Səhmdar Cəmiyyəti həyata keçirir. Bərdə şəhərində də kanalizasiya sisteminin yaradılması ilə əlaqədar ötən il Nazirlər Kabineti və "Azərsu"ya rəsmi şəkildə müraciət etmişəm. Bir daha hökumətdən xahiş edirəm ki, icra olunacaq layihələr çərçivəsində Bərdə şəhəri də nəzərə alınsın".

**"Parlamentdə yeni institut yaradılsın..."**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev parlamentdə qanunların hazırlanması üçün yeni institutun yaradılmasını təklif edib.** Deputat bildirib ki, nə dövlət qoruqlarının, nə milli parkların hüquqi rejiminə dair Azərbaycanda qanun var: "Təklif edirəm, bununla bağlı qanun hazırlansın. Ya bunu özümüz hazırlayaq, ya da hökumət göndərsin. Digər tərəfdən, hazırda Azərbaycanda dövlət qurumlarında nəsillərin tarazlanması prosesi gedir. Amma bütün sahələrdə bu, hamar formada özünü büruzə vermir. Bizə göndərilən qanun layihələrində çatışmazlıqlar olur. Ədliyyə Nazirliyi yanında Qanunvericilik Baş İdarəsi var. Baş İdarənin əsas vəzifəsi mövcud qanunların yeni qəbul edilmiş qanunlara uyğunluğunu təmin etməkdir. Bir çox halda Baş İdarənin də rəyləri nəzərə alınmır. Bu işlə məşğul olan institutun yaradılmasına nail olsaq, bu, Milli Məclisin adı ilə qalar. Bunun üçün Prezidentə müraciət edək. Rusiyada Nazirlər Kabineti yanında, Ukraynada Rada yanında, Qazaxıstanda Ədliyyə Nazirliyi yanında Qanunvericilik İnstitutu var. Biz də bu institutu ya Prezident, ya Nazirlər Kabineti, ya Milli Məclis, ya da Ədliyyə Nazirliyi yanında yaradaq. Belə institutun yaradılmasına son dərəcə ehtiyac var. Bununla bir çox problemi həll edib, çözə bilərik".

Sədr Sahibə Qafarova isə təklif edib ki, bu məsələ ilə bağlı komitədə Əli Hüseynli ilə məsləhətləşmələr aparılsın.

**"Gələcəkdə özü işdən çıxan şəxslərə sosial müavinət veriləbilər"**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, hazırda ölkə əhalisinin 47,2 faizi kənd yerində yaşayır.** Kənd yerində yaşayanlardan 49 faizi iqtisadi fəal əhalidir. Komitə sədri Sabir Rüstəmxanlının ötən iclasda kənd yerlərində yaşayanların peşə hazırlığına cəlb edilməsinə ehtiyac olmaması ilə bağlı fikrinə də münasibət bildirib: "Kənd yerində yaşayanların peşə hazırlıqlarına cəlb edilməsi olduqca vacibdir. Kənd yerində yaşayanlara da dülgər və s. lazım olur. İşaxtaran kimi qeydiyyata alınanların çoxu təcrübəsi olmayan, bir hissəsi isə öz ərizəsi ilə işdən çıxan şəxslərdir. 600 min nəfərə pandemiya dövründə birdəfəlik ödənişlər verildi. Amma onların hamısı iqtisadi fəal əhali deyil. Onların çox hissəsi evdə oturub, bu da onların hüquqlarıdır. Öz ərizəsi ilə işdən çıxanlarla bağlı isə Dövlət Məşğulluq Agentliyi ilə danışıqlar aparırıq. Əgər danışıqlar nəticə verərsə, gələcəkdə öz ərizəsi ilə işdən çıxan və bir müddət işsiz qalan şəxslərə hər hansı bir şəkildə sosial müavinət və ya dəstək veriləbilər". Parlamentin komitə sədri onu da qeyd edib ki, pandemiya dövründə xarici turizm demək olar ki, dayanmışdı: "Buna baxmayaraq, daxili turizmin inkişafı hesabına 6863 nəfər yenidən işə qəbul olunub. Araşdırmalarımıza əsasən bu rəqəm daha çox vaxtilə əmək müqaviləsi bağlanmayan şəxslərlə əmək müqavilələrinin bağlanması ilə bağlıdır".

**"Pandemiya dövründə 387 min insan işə qəbul olunub"**

**Musa Quliyev əlavə edib ki, pandemiya dövründə 327 min şəxsin işdən çıxması ilə bağlı məlumat verilib.** Amma onu da qeyd edim ki, 387 min insan isə işə qəbul olunub. Deputat bildirib ki, işdən çıxanların bir hissəsi ola bilsin daha yaxşı işə gedib: "Heç kəs onların məcburi yolla ərizə yazdırılaraq işdən çıxarıldığını deyə bilməz. Belə hal olubsa, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası var, qurumlar var. Onlar öz hüquqlarından istifadə edə bilər". Komitə sədri qeyd edib ki, pandemiya dövründə 8800-dən çox iş yeri, 15 mindən çox iaşə yeri bağlanıb: "Hansı ki, iaşə yerləri də turizmlə bağlıdır. Amma daxili turizm hesabına yeni iş yerləri də açılıb. Son 3 ildə əmək müqavilələrinin bağlanması halları 30 faiz yüksəlib. Bu da əməkhaqqı fondunun artmasına səbəb olur".

**"Yeni büdcə qaydası ilə xərclərdə yuxarı hədlər müəyyən edilir"**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, dövlət başçısının tapşırığı, imzaladığı Fərman və dövlət proqramları ilə Büdcə siyasəti və xarici dövlət borcunun idarə edilməsi siyasəti qarşısında mühüm hədəflər müəyyən edilib:** "Bu istiqamətdə xeyli uğurlar da əldə edilib. Bu hədəfləri əsasən 3 qrupa bölmək olar. Birincisi, büdcə idarəetməsində təkmilləşmələrin aparılması, büdcə dayanıqlılığının möhkəmlənməsidir. İkincisi, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin tədricən azaldılması və strateji ehtiyatların qorunmasıdır. Üçüncüsü, xarici dövlət borcunun ÜDM-yə nisbətinin tədricən azaldılması ilə bağlı hədəfdir. Hər 3 istiqamət üzrə tapşırıqlar indiki dördə makroiqtisadi sabitliyin qorunub gücləndirməsinə, iqtisadi müstəqilliyimizin artımına xidmət edir".

**"Artan xərclər qeyri-neft gəlirləri hesabına maliyyələşəcək"**

**Komitə sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, qanunlara təklif edilən dəyişikliklər də məhz bu hədəflərə xidmət etməkdədir:** "Bu dəyişikliklər transfer, büdcə ssudaları, icmal büdcə gəlirləri və xərcləri, ortamüddətli dövr, birdəfəlik təyinatlı xərclər və digər anlayışların dəqiqləşdirilməsi, dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun təşkilatı formasının dəyişdirilməsi, onun xərclərinin yuxarı həddinə limitin qoyulması büdcə siyasətində təkmilləşmələrə xidmət edir. Digər tərəfdən yeni büdcə qaydası ilə xərclərdə yuxarı hədlər müəyyən edilir. Qeyri-neft baza kəsirinin qeyri neft ÜDM-yə nisbəti ilə müəyyən edilən yuxarı hədlər və bu prosesdə xam neftin ixrac qiymətinin nəzərə alınması dolayısı ilə DNF-dən büdcəyə transferi azaltmağa hesablanıb. Qeyd edim ki, hər il bu yuxarı hədlərin azaldılması planlaşdırılır. Maliyyə Nazirliyi tərəfindən bizə təqdim edilən 5 illik simulyasiyalar büdcə xərclərinin artması senarisində Dövlət Neft Fondundan transferlərin azalacağını göstərir. Artan xərclər isə qeyri-neft gəlirləri hesabına maliyyələşəcək. Həmçinin, yeni qaydada dövlət borcunun ÜDM-yə nisbət göstəricisinin yuxarı həddi müəyyən ediləcək. Bu nisbət ildən-ilə dövlət borcunun ÜDM-yə nisbətinin azaldılmasına xidmət edəcək. Xatırladım ki, hazırda dövlət borcunun ÜDM-yə nisbəti 21.6 faizdir".



## Etimad Əsədov həmişə yaşayacaq!

### Baş qazinin doğum günü məzarı başında qeyd olundu

**"Qarabağ Qaziləri" İctimai Birliyinin üzvləri birliyin mərhum sədri, Baş qazi Etimad Əsədovun 58-ci doğum gününü dünən onun məzarı başında qeyd ediblər.** Qaziler.az bildirir ki, "Qarabağ Qaziləri" Birliyinin bir qrup üzvü Etimad Əsədovun məzarını ziyarət edib. Ziyarətçilər Etimad Əsədovun keçdiyi şərəfli döyüş yolundan danışaraq xatirəsini yad ediblər. Məzar başında onun Azərbaycan qaziləri üçün gördüyü işlərdən, ölkəmizə "qazilik" adının onun tərəfindən gətirildiyindən də danışılıb. Baş qazinin məzarı başına toplananlar onun ruhuna dualar oxuyub, Allahdan rəhmət diləyiblər. Xatırladaq ki, "Qarabağ Qaziləri" İctimai Birliyinin mərhum sədri Etimad Əsədov 2018-ci il oktyabr ayının 16-da vəfat edib.

## "Birlikdə şahid olacağıq"

### Ərdoğan: "Bir neçə aya inflyasiya azalmağa başlayacaq"



(Əvvəli səh.1)

**"İnsanlarımızın türk lirəsinin bankdakı əmanət gəliri məzənnə (kurs) artımından yüksək olarsa, qazanc əldə edəcəklər. Əgər xarici valyutanın məzənnəsi artarsa, aradakı fərqi biz birbaşa vətəndaşımıza ödəyəcəyik".**

"Bundan sonra heç bir vətəndaşımızın "valyuta məzənnəsi daha yüksək olacaq" deyə, əmanətlərini türk lirəsindən xarici valyutaya keçirməsinə ehtiyac qalmayacaq", - Türkiyə Prezidenti bildirib. (apa)

Bundan başqa Ərdoğan ixracatçı şirkətlərə də güzəştlərin tətbiq ediləcəyini deyib: "Valyuta məzənnələrinin dəyişməsi ilə əlaqədar qiymət təklif etməkdə çətinlik çəkən ixracatçı şirkətlərimizə birbaşa Mərkəzi Bank vasitəsilə forvard məzənnələri veriləcək". Prezident onu da qeyd edib ki, kredit faizləri aşağı düşdükcə, bu inflyasiyanın qarşısını almağa dəstək olcaq: "Bir neçə ay ərzində inflyasiyanın azalmağa

# "Qiymət artımına qarışmağın əleyhinəyəm"

## Millət vəkili deyəsən, xalqın güzəranından xəbərsizdir

İsmayıl Qocayev



**Parlamentdə "Turizm haqqında" qanun layihəsinin müzakirəsi zamanı maraqlı təkliflər və iradlar səsləndirilib. Bir çox deputat daxili turizmdəki problemlərdən, maneələrdən və baha qiymətlərdən danışıblar.**

**"Azərbaycanda kazinoların açılmasına icazə verilsin"**

**Millət vəkili Qüdrət Həsənquliyev Qarabağda, Zəngəzurda kazinoların açılmasını təklif edib:** "Azərbaycanın coğrafi mövqeyi imkan verir ki, əyləncə turizmi anlayışı da bu qanun layihəsinə daxil edilsin. Kazinoların Azərbaycanda açılmasına icazə verilsin. Rusiyada bu, müəyyən əraziləri əhatə edir. Azərbaycanda da belə edə bilərik. Məsələn, Qarabağda, Zəngəzurda kazinoların açılmasına icazə verə, bununla da turist cəlb edə bilərik. Digər tərəfdən, Nargin adasında buna icazə verə bilərik. Turist axınını cəlb etmək üçün xidmət sahəsində fəaliyyətlər təkmilləşdirilməlidir". Deputat bildirib ki, bu qiymətlərlə nə xaricilər Azərbaycana gələcək, nə də daxili turizm inkişaf edəcək: "İnsanlar evində oturub bozbaş yeməyə üstünlük verəcək. Burada əsas məsələ qiymətlərin aşağı salınması ilə bağlı olmalıdır".

**"Kimsə hansısa piri müqəddəs hesab edirsə, bu o demək deyil ki, ora müqəddəs yerdir"**

**Millət vəkili Fazil Mustafa vurğulayıb ki, bir sıra məsələyə peşəkar yanaşmanın daha ciddi şəkildə tətbiq edilməsi vacibdir:** "Hansısa dövlət qurumdan gələn qanun layihələrində maraqlar toqquşur. Bizim tərəfimizdən bu qanun layihəsi qəbul edildikdən sonra vətəndaşların ziyanına olan və hansısa qurumun marağı üstün tutulan bir qanun ortaya çıxır". Deputat qanun layihəsində turistlərin hüquq və vəzifələrinə də toxunub: "Bu maddələri biz heç Azərbaycan vətəndaşı üçün təmin edə bilmirik. İkincisi, müqəddəs yerlərlə bağlı məsələdir. Azərbaycanda hansı müqəddəs yer var? Burada tarixi, dini yerlər yazılsa, daha yaxşı olar. Kimsə hansısa piri müqəddəs hesab edirsə, bu o demək deyil ki, ora müqəddəs yerdir. İslam dünyasında "müqəddəs", "halal" sözlərini spekulyasiya edirlər".

**"Bazar iqtisadiyyatı özü qiymətləri tənzimləyəcək"**

**Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev deyib ki, kafe və restoranlarda qiymət artımına qarşı çıxmaq düzgün deyil.** Onun sözlərinə görə, bütün restoranların, çayxanaların menyularında qiymətlər yazılmalıdır. Eyni zamanda onların qiymətinə onlayn da baxmaq mümkün olmalıdır: "Bazar iqtisadiyyatı özü qiymətləri tənzimləyəcək. Yaşayış minimumuna aid olan qiymətlərə isə dövlət özü nəzarət etməlidir. Biz uzun illərdir, bazar iqtisadiyyatına keçmişik. Kafe, restoranlar qiymət artımını kənd təsərrüfatı məhsullarının qiymətinin artması ilə əlaqələndirir. Ona görə qiymət artımına qarışmağın əleyhinəyəm. Otellərin qiymətləri isə bütün dünyada belədir. Seçimlər var və insanlar hansı otel büdcəsinə uyğundursa, orada dincələ bilər. Biz bütün obyektləri, otelləri məcbur etməliyik ki, hamısının rəsmi formada qiymətləri və bu qiymətlərə onlayn baxmaq mümkün olsun. Bu da insanların seçimini formalaşdıracaq".

**"Resurslarımızı gələn turistlərin ehtiraslarına qurban verə bilmərik"**

**Millət vəkili Sabir Rüstəmxanlı İrandan turist axınının azalmasının səbəblərindən danışıb:** "Bir neçə il öncə Güney Azərbaycandan turistlər Azərbaycana axın edirdilər, Novruz bayramını da burada keçirirdilər. Onlar yalnız 1 il gəldilər. Gəlib gördülər burda bahalıqdır, həm də sərhədi keçəndə onları incidirdilər. Daha sonra onların üzü İrəvana çevrildi, çünki gedənlərə xüsusi şərait yaradırdılar". S.Rüstəmxanlı ovçuluq turizmi ifadəsinin layihəyə salınmamasını dəstəkləyib: "Biz resurslarımızı gələn turistlərin ehtiraslarına qurban verə bilmərik".

**"Onlayn xəritələr Azərbaycanda yer adlarını bəzən səhv göstərir"**

**Deputat Erkin Qədirli isə deyib ki, onlayn xəritələr Azərbaycanda yer adlarını bəzən səhv göstərir.** O qeyd edib ki, Azərbaycana gələn turistlər əsasən onlayn xəritələrdən istifadə edirlər, xüsusilə "google map"dən: "Ancaq həmin xəritələr yer adlarını yanlış göstərir. Biz özümüz də bəzən bu xəritələrdən istifadə edirik. Bu işlə məşğul olan qurumlar bu məsələləri nəzərə almalıdır".

**"Qanunla bağlı dinləmələr keçirilsin..."**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentdə "Turizm haqqında" qanun layihəsi ilə bağlı müzakirələrin təşkil olunacağını deyib.** Bildirib ki, qanun layihəsi ilə bağlı işçi qaydada müzakirələr keçiriləcək və səsləndirilən təkliflərə baxılacaq: "Aidiyyəti qurumları da bura dəvət edək və deputatların təkliflərini dinləyək". Sədr Sahibə Qafarova da qeyd edib ki, hər kəs həmin müzakirələrə dəvət edilsin və deputatların təkliflərinə çox ciddi yanaşılsın.

# Təyyarə biletlərini ucuzlaşdırmaq mümkün olmayacaq

## "Çünki AZAL inhisarçılıq mövqeyini əldən vermək istəmir. Digər rəqiblərin bazara daxil olmağının qarşısı alınır"



**Azərbaycan Hava Yolları QSC-dən (AZAL) narazılıqlar bitmək bilmir. Təyyarə biletlərinin qonşu ölkələrlə müqayisədə fantastik qiymətlərə bazarlanması insanların haqlı giləyinə səbəb olur.**

Məsələn, "Çapar dərgisi"nin baş redaktoru Dilqəm Əhməd "Facebook" səhifəsində paylaşım edərək AZAL-ın qiymət siyasətinə narazılığını ifadə edib: "Bakıdan Ankaraya normal təyyarə ilə uça bilmirik, Türk Birliyinə necə uçacağıq? Bu qədər baha təyyarə qiyməti olmaz". Millət vəkili Aqil Abbas da Milli Məclisin ötən həftə baş tutan iclasında "Turizm haqqında" qanuna münasibət bildirərkən biletin bahalı olmasından şikayətlənib: "AZAL qiymətləri qaldıra-qaldıra gedir. Gözləyirəm Zəngəzur dəhlizi açılsın, ordan İrəvana gedəcəm və Türkiyəyə 80 manata bilet alacam".Günü-gündən AZAL-la bağlı şikayətlər artır. Biletlərin baha olması xaricə təyyarə ilə getmək istəyən insanların arzusunu ürəyində qoyur".

**Mövzunu inkişaf etdirən iqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirib ki, biletlərin baha olmasının təqsirkarı AZAL-dır:**

"AZAL monopolist və inhisarçı qurumdur. İnhisarçılıq mövqeyini də əldən vermək istəmir. Digər rəqiblərin bazara daxil olmağının qarşısı alınır. Xarici şirkətlərin Azərbaycandan uzaq salınmasına çalışırlar. Azərbaycana gəlirlər, sonra da qaçıb gedirlər. Səbəb isə hava limanının xidmətlərindən istifadə edərkən çox böyük vəsait ödəmək məcburiyyəti yaranır. Yerüstü xidmətlər çox bahadır. Qiymətlərin yuxarı olması AZAL-a sərf edir.

Əlavə olaraq, təkbaşına bazarda olmasına baxmayaraq, rəsmi rəqəmlərə görə, AZAL hələ də ziyanla işləyir. Buna görə də dövlətdən dotasiya alır. 2020-ci ildə pandemiya dövründə dövlət 80 milyon dotasiya verdi. 2018-ci ildə rəsmi rəqəmlərə görə, 216 milyon manat ziyana uğrayıb.

Bu qədər tənqidin qarşısında bu qurumla bağlı heç bir ciddi qərar verilmir. İnhisarçılığa son qoymaq üçün yerüstü xidmətlər AZAL-dan tamamilə ayrılmalı, idarəetmə strukturlarında dəyişiklik edilməli, nəzarət mexanizmi gücləndirilməli, bazarda oyunçularının sayı artırılmalıdır".

**Xanlar Əlibəy**



# Fransanın birtərəfli mövqeyi öz imicini pisləşdirdi

## "Bu ölkə indi Cənubi Qafqazda düşdüyü "oyundankənar vəziyyət"dən uzaqlaşmağa çalışır"

**"Fransa öz səhvi ucbatından 44 günlük müharibədə və ondan sonrakı məhələdə Cənubi Qafqazda düşdüyü "oyundankənar vəziyyət"dən uzaqlaşmağa çalışır".**

Bunu politoloq Araz Aslanlı deyib. Siyasi şərhçi bildirib ki, əslində Fransa ATƏT-in Minsk qrupunda həmsədr olduqdan dərhal sonra 1997-ci ildə "mərhələli həll planı"nı reallaşdırmağa çox yaxınlaşmış bir dövlət kimi müsbət imicə malik idi: "Amma sonradan beynəlxalq hüquqa və BMT TŞ-nin qətnamələrinə zidd birtərəfli mövqe tutaraq öz imicini pisləşdirdi. İndi imicini bir qədər bərpa etmək üçün imkanları var. Bunun üçün isə həmsədrlik institutunu bərpa etməyə və 44 gündən öncəki mərhələyə qayıtmağa çalışmaqdan uzaq durmalıdır. Revanşizmi təhrik etməməli, münaqişədən sonrakı quruculuq prosesinin bir parçası olmağa çalışmalıdır".

**İsmayıl**



# Qazanc da artacaq, nüfuz da...

## Türkiyə, Azərbaycan və Gürcüstanın anlaşması regionun mənzərəsini dəyişəcək

**2021-ci il oktyabrın 8-də İzmir şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol" təsdiq edilib. Komitənin yaradılması başa çatdıqdan sonra onun fəaliyyəti Azərbaycana, onun iqtisadiyyatına müsbət töhfə verəcək.**

*Komitənin yaradılmasının məqsədləri və əhəmiyyəti ilə bağlı "Şərq"ə danışan iqtisadçı Eldəniz Əmirov bildirib ki, bu protokol yeni münasibətlərin və eyni zamanda perspektiv üçün nəzərdə tutulan 3+3 formatında yeni bir düzənin formalaşmasına ciddi imkan verəcək:*

"Region ölkəklərində İran, Rusiya və Ermənistanla müqayisədə Türkiyə və Gürcüstan, ələlxüsus da, Türkiyə daha çox iqtisadi cəhətdən inkişaf etmiş və müasir istehsal və qeyri-neft ixracı üzrə iqtisadiyyatını formalaşdırılmış nümunəvi ölkədir. Bu konstektdə də Azərbaycan, Gürcüstan və Türkiyə arasında olan belə bir anlaşma Azərbaycan iqtisadiyyatı üçün əlavə individetlər qazandırmış olacaq.

Nəzərə alsaq ki, yaxın vaxtlarda Zəngəzur dəhlizinin açılacağı gözlənilir, Zəngəzur dəhlizi məhz bu regionda Azərbaycanın logistik fəaliyyəti işğaldan azad olunmuş ərazilərimizin potensiyalından maksimal dərəcədə yararlanmasına töhfə verəcək bir kommunikasiya layihəsi, xətti olacaqdır. Bu kontekstdə də 3 tərəfli razılaşma bu dəhlizin imkanlarından daha optimal istifadə etmə imkanı yaratmış olacaqdır".

*İqtisadçının sözlərinə görə, Azərbaycan logistik fəaliyyətin maksimum təmin olunması üçün paralel olaraq bütün region ölkələri ilə işlər aparır:*

"Bildiyimiz kimi gündəmdə olan məsələlərdən biri də 3+3 formatında tərəfdaşlığın formalaşmasıdır ki, 3+3-ün birinci tərəfi Rusiya, Türkiyə, İran ikinci tərəfi isə Azərbaycan, Ermənistan və Gürcüstandır ki regionun 6 dövlətindən ibarət tərəfdaşlığın forması regionda iqtiasdi, siyasi eyni zamanda dayanıqlı inkişafın təmin olunmasında öz rolunu oynayacaqdır. Bir müddət əvvəl Gürcüstan, İran və Azərbaycan arasında bir razılaşma əldə olunub. Məhz bu razılaşma əsasında İran körfəzindən Qara dənizə qədər tranzit xətti Azərbaycan üzərindən keçərək İran, Azərbaycan, Gürcüstan olmaqla Gürcüstanın Qara dəniz sahilində olan iki limanının İran körfəzində olan limanlarla bağlanılması, yəni nəqliyyat dəhlizi vasitəsilə əlaqələrin təmin olunması ilə bağlı bir razılıq əldə olunmuşdur. Göründüyü kimi Azərbaycan tərəfi həm İranla, həm Türkiyə ilə, həm də Gürcüstanla getdikcə kommunikasiyaların, iqtisadi əlaqələrin tranzit daşımaların maksimum təmin olunması üçün paralel olaraq bütün region ölkələri ilə işlər aparır. Biz bunu bir müddət əvvəl İran, Azərbaycan, Gürcüstan indi isə Türkiyə Azərbaycan, Gürcüstan formatındfa müşahidə edirik".

**Sənan**

# İranlı turistlər qeybə çəkilib

## Azərbaycan qonşu ölkələrlə rəqabətdə uduzur

**"Bir neçə il öncə Güney Azərbaycandan turistlər Azərbaycana axın edirdilər, Novruz bayramını da burada keçirirdilər". Bunu Milli Məclisin bu gün keçirilən iclasında "Turizm haqqında" yeni hazırlanan qanun layihəsinin müzakirəsi zamanı deputat Sabir Rüstəmxanlı deyib.**

Deputat bildirib ki, onlar yalnız 1 il gəldilər: "Gəlib gördülər burda bahalıqdır, həm də sərhədi keçəndə onları incidirdilər. Daha sonra onların üzü İrəvana çevrildi, çünki gedənlərə xüsusi şərait yaradırdılar".



***Bilet, otel qiymətləri baha, quru yolunun bağlı olması turist sayının azalmasına səbəb olub***

**Millət vəkilinin fikirlərini "Şərq"ə şərh edən iqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycan qonşu ölkələrlə rəqabətdə uduzur:**

"Dünyada pandemiyayla əlaqədar turizm sektoru həddən artıq zəifləyib. Bizim yerüstü keçid məntəqələrinin hələ də bağlı olması başqa qonşu ölkələrə nisbətən bir az geridə qalmağımıza səbəb olur. Məsələn, Gürcüstan həm Ermənistanla, həm Türkiyə ilə yerüstü sərhədlərini açıb. Hətta İran vətəndaşları Ermənistan üzərindən avtomobillə, avtobuslarla artıq Türkiyəyə keçirlər. Bizim sərhədlərimizin bağlı olması onsuz da problem yaradır. Cənubi Azərbaycanda, İranda yaşayan soydaşlarımızın Azərbaycana marağını nəzərə alsaq, təbii ki, Azərbaycana daha çox gəlməyə üstünlük verməlidirlər. Çünki əvvəllər olurdu, Novruz bayramlarında çoxlu sayda İrandan turistlər də gəlirdi. Bizdə qiymətlərin baha olması, qonşu ölkələrlə, əsasən də, Gürcüstanla qiymətdə rəqabətə davam gətirməməyimiz, hava uçuşlarının baha olması, bütün bunlar turizmdə qarşıya qoyulan hədəflərə çatmaqda ciddi maneçilik yaradan amillərə çevrilir. Faktiki olaraq qonşu ölkələrlə biz rəqabətdə uduzuruq.

Bizim Gürcüstanla rəqabət aparmağımız lazım idi, bir də qiymətlərdə və yerüstü keçidlərin çətinliyi nöqteyi-nəzərindən uduzuruq və faktiki olaraq öz turizm payımızı ala bilmirik. Nəticə etibarilə də uduzan Azərbaycan iqtisadiyyatı olur. Çünki İran əhalisinin sayına görə və Azərbaycana mədəni yaxınlığı olan soydaşlarımızın, dil yaxınlığı olan soydaşlarımızın çoxluğuna görə çox mühüm bir bazardır. Amma təəssüf ki, bu bazardan yetərincə istifadə edə bilmirik.

**Natiq Cəfərli həmçinin onu da vurğulayıb ki, Türkiyə və Gürcüstanla müqayisədə həm otel qiymətlərində, həm restoran qiymətlərində kifayət qədər ciddi fərq var:**

"Bəzi hallarda bir neçə dəfə fərq olur. Məsələn, 5 ulduzlu otelləri müqayisə etsək, Türkiyəylə, Gürcüstanla Azərbaycan arasında bəzi hallarda 2-3 dəfə fərq olur".

Məsələnin həll yolları haqqında danışan iqtisadçı bir sıra problemlərin aradan qaldırılmalı olduğunu vurğulayıb: "Söhbət İrandan gələn turistlərdən gedirsə, sərhəd-keçid məntəqələrinin sayı artırılmalıdır. İşğaldan azad olunmuş torpaqlarımızda da yeni sərhəd-keçid məntəqələrinin yaradılması nəzərdə tutulur. Yəni sərhəd-keçid məntəqələrinin sayı kifayət qədər çox olsa, gediş-gəlişə müsbət təsir göstərər, növbələr yaranmaz, insanlar, əsasən də avtomobillə keçənlər saatlarla vaxt itirməzlər. Həm də keçid qaydalarında bir şəffaflığa ehtiyac var".

**Sənan İsmayıl**

# Hökumət həssas təbəqəni bahalaşmadan qoruyur

## Sosial dəstək alıcılıq qabiliyyətinin artmasına töhfə verəcək



**Azərbaycanda vətəndaş rifahının təminatı, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Dövlət başçısının bu günlərdə imzaladığı yeni Fərman və sərəncamlar bu istiqamətdə xüsusilə son illərdə ardıcıl, geniş miqyas alan sosial islahatların növbəti mərhələsinə başlanmasını təmin etdi.**

Bu yeni islahatlar mərhələsi - 2022-ci ilin sosial islahatları dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamına əsasən reallaşdırılır. Yeni ildən tətbiq ediləcək bu islahatlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar 2,1 milyondan çox şəxsi əhatə edəcək.

Azərbaycanda əməkhaqqı sahəsində mühüm addım atıldı. Prezident İlham Əliyevin 2021-ci il 17 dekabr tarixdə imzaladığı Sərəncamla minimum aylıq əməkhaqqının məbləği yüksəldilərək 250 manatdan 300 manata çatdırıldı. Sərəncam 1 yanvar 2022-ci ildən tətbiq ediləcək.

Minimum əməkhaqqı artımı dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, ümumən 800 min işçini əhatə edəcək.

Dövlət başçısının Sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə çoxaldılaraq 130 manatdan 300 manata çatdırılıb.

Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, əməyin leqallaşdırılmasını da stimullaşdırır.

**Məlum artımların vətəndaşlarımızın sosial rifahına göstərəcəyi təsirlərlə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Şahin Elxanoğlunun fikrincə, növbəti il dünya bazarında qiymət artacaq:**

"İnflyasiya 2017-ci ildən sonra ən yüksək səviyyəyə qalxıb. Ərzaq məhsullarının, qeyri-ərzaq məhsullarının, kommunal xidmətlərin qiyməti artıb. Belə bir vəziyyətdə minimum əməkhaqqının 250 manatdan 300 manata artırılması və bunun 800 min nəfərə şamil olunmasını yüksək qiymətləndirirəm. Tələbə təqaüdlərinin artırılması, təhsil işçilərinin əməkhaqqının yüksəldilməsi, əlbəttə, müsbət addımdır. Bu kimi artımlar insanların alıcılıq qabiliyyətini daha da artırır və bu da yerli istehsalın payının artmasına səbəb olur".

*İqtisadçı Xalid Kərimli isə bildirib ki, əhalinin maddi imkanlarının zəifləməsi bazardakı ümumi iqtisadi aktivliyə təsirini göstərəcək:*

"2020-ci ildən başlayan inflyasiyanın nəticəsində yaranan vəziyyət Azərbaycanın daxili bazarına da təsirsiz ötüşmədi. Son 12 ayda inflyasiya 11 faizi və ərzaq qiymətlərinin qiyməti isə 15 faizi keçib. Nəticədə minimum əməkhaqqı alan vətəndaşların vəziyyəti pisləşəcək, onların alıcılıq qabiliyyəti aşağı düşəcək.

Prezidentin sərəncamları maddi cəhətdən zəif imkanları olan əhalinin maddi çətinliyini aradan qaldırmağa xidmət edir. Hökumət inflyasiyaları nəzərə alaraq, vəziyyəti tənzimləyir. Sosial dəstəklə alıcılıq qabiliyyətinin artmasına töhfə veriləcək. Hökumətin islahatları zəif təbəqəni bahalaşmadan qorumağa hesablanıb".

**Xanlar Əlibəy**

# Azərbaycanlı qadın Almaniyada faciəli şəkildə öldü



**Almaniyada azərbaycanlı qadın yol qəzasına düşüb.**

lent.az xəbər verir ki, bu barədə həmin ölkədə yaşayan həmyerlilərimiz xəbər veriblər. Onların sözlərinə görə, hadisə dekabrın 16-da Bielefeld şəhərində qeydə alınıb.

*Avtomobil qəzası zamanı iki uşaq anası olan 32 yaşlı Esmira Axundova həlak olub.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**




# Tariximizin qürurlu və şanlı səhifəsi

## Nizami Gəncəvi 880 ildir bizimlədir

İsmayıl Qocayev

**Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Görkəmli mütəfəkkirin xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.**

Dahi Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb-yaradıb. Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirib. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan verib. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülüb. Əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanıb, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilib. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaradıb. Ulu öndər Heydər Əliyev Nizami irsinə xüsusi diqqət yetirib. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

Yola salmağa hazırlaşdığımız 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam oldu. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi ili" elan edildi. İlin əvvəlindən etibarən dahi Nizami Gəncəvi ilə bağlı çoxsaylı tədbirlər, konfranslar keçirilib. Həm ölkə daxilində, həm də "Nizami Gəncəvi Beynəlxalq Mərkəzi"nin təşəbbüsü ilə dünyanın bir çox ölkəsində mühüm elmi-konfranslar təşkil olunub. Demək olar ki, ilin bütün aylarında Nizami Gəncəvi yaradıcılığı ilə bağlı müxtəlif tədbirlər baş tutub. Dekabr ayı ərzində də tədbirlər davam edib. Hər tədbirdə vurğulanıb ki, müdrik Nizami Gəncəvi hikmət və fəlsəfə şairidir. Onun yaradıcılığı çoxşaxəlidir və yeniyetmələrin tərbiyəsindən tutmuş dövlət idarəçiliyinə qədər müxtəlif sahələri əhatə edir. Nizami Gəncəvi yaradıcılığının təbliğat üçün daha bir əhəmiyyətli tərəfi odur ki, son yüz əlli ildə Nizaminin əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunub. Avropada da, Şərq ölkələrində də çoxsaylı alimlər var ki, onun yaradıcılığına yaxşı bələddirlər. Həm də böyük mütəfəkkirə tarix boyu iddia edən, onu özününküləşdirməyə çalışan bir çox millətlər olub. Bu baxımdan Nizami Gəncəvi elmi-ədəbi irsinin dünyada təbliğatı həm də Azərbaycanın tanıtımı deməkdir.

Ötən gün "Nizami Gəncəvi Mədəni İrsi XXI əsr" simpoziumunda çıxış edən mədəniyyət nazirinin müavini Elnur Əliyev deyib ki, Azərbaycan ədəbiyyatı, incəsənəti, mədəniyyəti hər əsrdə bir tarixi şəxsiyyət yetişdirir. Nizami yaradıcılığı da öz böyüklüyü və özünəməxsusluğu ilə seçilir. Onun sözlərinə görə, kifayət qədər xarici vətəndaş var ki, Nizami yaradıcılığını tədqiq edir: "Biz onlarla daim təmasdayıq. Onlarla söhbət edəndə Nizami Gəncəvini yenidən kəşf edirik. Biz Nizami əsərlərini tərcümədən oxuyuruq, amma onlar orijinaldan, fars dilindən oxuyurlar və deyirlər ki, Nizami dövrünün digər şairlərindən çox fərqlidir. Belə hesab edirəm ki, biz Nizamini hələ tam dərk etməmişik. Bunun subyektiv səbəbləri var. Çünki Nizami Gəncəvi yaradıcılığı bizə uzun illər sovet məktəbinin prizmasından öyrədilib. Qərb tədqiqatçıları ümumi olaraq belə deyirlər ki, insana, insan cəmiyyətinə ensiklopedik yanaşma edib".

***"Azərbaycan ədəbiyyatı, incəsənəti, mədəniyyəti hər əsrdə bir tarixi şəxsiyyət yetişdirir"***

**Milli Məclisin deputatı Soltan Məmmədov da bildirib ki, "Nizami ili" səfirliklərimiz vasitəsilə dünyanın müxtəlif ölkələrində qeyd olunur. Deputatın sözlərinə görə, bu tədbir də həmin silsilədəndir:** "Tədbirin bu səviyyədə təşkili və iştirakçı sayı onu göstərir ki, Nizami yaradıcılığını, Azərbaycan ədəbiyyatını sevənlər çoxdur. Bu gün hər birimiz tariximizin qürurlu və şanlı səhifələrini yaşayırıq. Azərbaycanın tarixi şəxsiyyətlərinə qiymət verən bu tip tədbirlərin keçirilməsi də təqdirəlayiq haldır".

Tanınmış şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə "Şərq"ə açıqlamasında deyib ki, pandemiya şəraiti "Nizami Gəncəvi ili" çərçivəsində daha çox iş görməyə, genişmiqyaslı tədbir-konfrans keçirməyə mane olub. Şairin fikrincə, koronavirus bəlası olmasaydı, dahi Nizami Gəncəvinin 880 illiyini daha yaddaqalan tədbirlərlə qeyd etmək olardı: "Məsələn, şairin doğulub-yaşadığı Gəncədə möhtəşəm yubileyi keçirilə bilərdi. Poeziya gecələri təşkil olunardı. Beynəlxalq səviyyədə, xarici ölkələrdə, qonşu dövlətlərdə konfranslar baş tutardı. Hər halda mövcud şəraiti də nəzərə alsaq, "Nizami Gəncəvi ili"ndə kifayət qədər işlər görüldüyünü deyə bilərik. Dahi şairimizin dəyərli irsi hər il olduğu kimi bu il də dünyada təbliğ olundu. Eyni zamanda ölkəmizdə Nizami Gəncəvinin yaradıcılığı ilə bağlı müəyyən tədqiqat əsərləri yazıldı. Çoxları ilə tanış olmuşam. 18-19 dekabr tarixlərində Akademik Milli Dram Teatrında şair-yazıçı, kinodramaturq İlqar Fəhminin "Nizami Gəncəvi ili" çərçivəsində hazırlanmış "İsgəndərə yeni namə" adlı pyesi teatrda oynanıldı.. Bu sahədə kim nə iş görübsə, hamısı sağ olsun".

Q.Nəcəfzadə vurğulayıb ki, tarix boyu Nizami Gəncəvini başqa xalqlar öz adlarına çıxmaq istəyiblər: "Qarabağı, Şuşanı düşmən işğalından azad etdiyimiz kimi Nizamini də "işğaldan" xilas etməliyik. 2021-ci il ona görə "Nizami Gəncəvi ili" elan olunub. Sərəncamın verilməsində məqsəd Nizamini özümüzünküləşdirmək və dünyada təbliğ etmək və Azərbaycanın mədəni sərvəti olduğunu hamıya göstərmək idi. İşğal təkcə torpaqla bağlı olmur. Eyniylə musiqilərimizə, mənəvi dəyərlərimizə, ədəbiyyatımıza və tarixi simalarımıza da iddialar olur. Onları da "işğal" etməyə çalışırlar. Biz həm də bununla mübarizə aparırıq. Mənə elə gəlir ki, biz dahi şarimiz Nizami Gəncəvini "işğaldan" xilas edə bildik".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Paşinyan Gürcüstanın qapısına gedib

## Baş nazir çalışır ki, ölkəsi bu ölkənin vasitəsilə Qara dənizin sularına çıxsın

**"Çətinliklərə baxmayaraq, bu gün Ermənistan və Gürcüstan arasında münasibətlər keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyub və müxtəlif sahələrdə uğurlar əldə olunub. Ermənistan ilə Gürcüstan arasında dostluq münasibətləri regionda sülh və sabitliyin qorunmasına töhfə verir".**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Tbilisidə keçirilən Gürcüstan və Ermənistan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 11-ci iclasında deyib.

Görüşdən sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili isə bildirib ki, ölkəsi bölgədə sülh və sabitliyin olmasında maraqlıdı. Gürcüstan bu prosesdə ən vacib rollardan birini oynamağa həmişə hazırdır.

**Cənubi Qafqazda baş verən hadisələr çərçivəsində Gürcüstan-Ermənistan münasibətləri və bu münasibətlərin inkişafının Azərbaycana təsiri ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, Gürcüstan Ermənistanla münasibətləri pisləşdirmir, əksinə, yaxşılaşdırmaq istəyir.**

"Amma Azərbaycanla oyun oynayırlar. Biz onların düşmən olmasını istəmirik. Amma Ermənistan çalışır ki, Gürcüstan ərazisindən Abxaziyaya gedən dəmir yolları və digər yolları açdırsın. Fikrimcə, bu, mümkün olmayacaq. Çünki bu, Rusiyayla bağlı olan məsələdir. Ona görə də çətin olacaq. Amma bununla yanaşı iki ölkə arasında müəyyən əlaqələrin inkişaf etməsinə xeyli imkan var. Onu da qeyd edim ki, Gürcüstan altılıq formatına girmək istəmədi. Bəhanə gətirdi ki, orada Rusiya var. Rusiya tutaq ki, onun ərazisinə ilhaq edib, qondarma respublikalar yaradıb. Amma Ermənistan da Rusiyanın ən yaxın strateji müttəfiqidir və strateji müttəfiqlə də Gürcüstan ehtiyatlı olmalıdır. Ən başlıcası ondan ibarətdir ki, dəmir yolları və şosse yolları Abxaziya vasitəsilə açılmayacaq. Ermənistan Rusiya ilə bütün əlaqəsini Gürcüstan vasitəsilə həyata keçirir. Gürcüstandan keçən qaz kəməri ilə Rusiyadan qaz alır.

Son vaxtlar onların yeni əlaqələri də mövcuddur. Qarşılıqlı ticarət əlaqələrinə malikdirlər. Hər ikisi çalışırlar ki, Gürcüstanla Ermənistan arasındakı məsələlər inkişaf edərək daha yüksək səviyyəyə çatsın. Bu yolla həm də Paşinyan cəhd edir ki, Gürcüstan vasitəsilə Qaradənizin sularına çıxsın".

*Qabil Hüseynli əsas çətinliyin Abxaziya ərazisindən keçən dəmir yolunun Gürcüstan tərəfindən bağlanması olduğunu bildirib:*

" O yollar, demək olar ki, tamamilə bağlıdır. Eyni zamanda şosse yolları da bağlıdır. Əsas çətinliklərdən biri də Qaradəniz limanlarından Ermənistanın istifadə etməsi məsələsidir. Gürcüstan bu məsələdə bir az zirək tərpənib və Ermənistandan müəyyən tranzit xərcləri almaqla Qaradənizin dəniz limanlarına Ermənistanı buraxır. Ola bilsin ki, Paşinyan çətinlik deyəndə qiymətlərin qaldırılmasını nəzərdə tuta bilər. Amma hər halda hər iki ölkə arasında razılaşma imzalanıb ki, Qaradəniz limanlarına sərbəst çıxış üçün Ermənistana imkan yaradılacaq".

**Politoloq bildirib ki, Gürcüstanın Azərbaycan və Ermənistan arasında vasitəçi rolunu oynaması mümkün deyil:**

"Biz Gürcüstanı özümüzün həyata keçirdiyimiz bir sıra beynəlxalq layihələrin iştirakçısı etmişik. Bu gün Gürcüstan büdcəsinə daxil olan gəlirin 48 faizi Azərbaycanın verdiyi tranzit və digər xərclərdir. Gürcüstan büdcəsinin yarısı Azərbaycan hesabına formalaşır. Gürcüstan "Altılıq" formatına qarşı çıxaraq bildirdi ki, o təkcə Azərbaycanla Ermənistan arasında vasitəçi ola və bu prosesləri təkbaşına idarə edə bilər. Amma bu, mümkün deyil. Bu proseslərdə dominant rolunu Rusiya oynayır. Rusiya Gürcüstanın belə bir iddiasına qətiyyən yol verə bilməz. Heç Ermənistanı da qoymaz ki, belə bir məsələyə "hə" desin.

Bu mürəkkəb münasibətlər sistemində hərə öz geostrateji maraqlarını güdür və bəzən də bir-birinə qarşı səmimi hərəkət etmirlər. Amma hər halda Gürcüstan-Ermənistan münasibətlərinin inkişafda olduğunu demək mümkündür".

**Sənan İsmayıl**

# Nazirin iradları gerçəkliyi əks etdirir

## Beynəlxalq elmi tədqiqatlarda nəticələrimiz yüksək deyil

**"Düzgün suallar qoymaqla və bunun ətrafında müzakirələr aparmaqla təhsil sistemini daha sürətli inkişafa təhrik etmək olar". Bunu Təhsil naziri Emin Əmrullayev Təhsil İnstitutunun 90 illik yubileyi münasibətilə keçirilən tədbirdə çıxışı zamanı deyib. O bildirib ki, təhsil sistemində bir çox suallar var və bunlara cavab axtarmaq lazımdır.**



***"Mütəxəssis çatışmazlığı var. Tədrisi beynəlxalq standartlarla aparanlar yoxdur. Müəllimlərin hazırda aldığı əməkhaqqı fonunda onlardan çox şey tələb edə də bilmərik"***

20 ildir bu suallar verilir və onların da hansısa cavabları var. Lakin təhsilin irəli getmə sürətinə görə bu sualların cavabları o qədər də təsir etmir. "Azərbaycan bir çox beynəlxalq elmi tədqiqatlarda iştirak edir və nəticələrimiz elə də yüksək olmur. Reytinqdə niyə aşağıdayıq və günahkar kimdir? Bu suallara cavab tapmaq lazımdır. Şikayət etməklə sistem irəli getmir. Sistem o zaman irəli gedər ki, problemi qoyub onun həlli istiqamətində çıxış yolu tapaq". O qeyd edib ki, Təhsil İnstitutunun təhsil sahəsində müəyyən uğurları var. "Təhsil İnstitutunda çalışdığım müddətdə 73-ə yaxın layihə idarə edirdik. Böyük təşəbbüslərə doğru irəliləyirik. İcma əsaslı məktəbəqədər təhsil müəssisələri ilə bağlı layihə bu gün 750-dən çox kənddə 15 mindən çox uşağa xidmət göstərir. Bu layihə vasitəsilə ucqar kəndlərdə olan 777 qadın işlə təmin oluna bildi", - deyə nazir əlavə edib.

**Təhsil Xidmətləri Araşdırma Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında nazirin iradlarının gerçəyi əks etdirdiyini bildirdi:**

- Beynəlxalq elmi tədqiqatlarda Azərbaycanın nəticələri istədiyimiz, arzu etdiyimiz kimi yüksək deyil. Amma bunu da nəzərə almalıyıq ki, ölkəmiz 30 ildir müstəqilliyini bərpa edib. 1990-cı illərin siyasi təlatümləri, Qarabağ müharibəsi bütün sahələrə olduğu kimi, təhisl sahəsinə də mənfi təsirini göstərdi. Azərbaycan təhsili 2013-cü ildən yeni mərhələyə başlayıb. Beynəlxalq qiymətləndirmə sistemi, təhsildə rəqabətlilik, irəliləmə ilə bağlı nəticələr də 2013-cü ildən hesablanmağa başlayıb. Amma bizdə beynəlxalq qiymətləndirməni, beynəlxalq təhsil meyarlarını bilən müəllimlər, məktəb rəhbərləri hələ də yoxdur. Ona görə də biz ciddi irəliləyişlərə, yüksək nəticələrə iddia edə bilmirik. Sürət aşağıdır. Mütəxəssis çatışmazlığı var. Tədrisi beynəlxalq standartlarla aparanlar yoxdur. Müəllimlərin hazırda aldığı əməkhaqqı fonunda onlardan çox şey tələb edə də bilmərik.

**K.Əsədov qeyd etdi ki, bütün bunlara baxmayaraq son illərdə sevindirici nəticələr əldə edilib:**

- Beynəlxalq qiymətləndirmə proqramları - RİSA, PİRLS, TİMSS - bu proqramları 4432 ümumtəhsil məktəbindən yalnız 15-də tətbiq edə bilmişik. Bu proqramlar müxtəlif yaş qrupuna aid şagirdlər arasında oxu bacarığı, riyaziyyat, təbiət fənləri üzrə qiymətləndirmə meyarlarıdır. Yəni şagirdlər bu fənləri necə mənimsəyir. Son illərdə müəyyən ciddi nəticələrimiz olub. Məsələn, 2013-cü illə müqayisədə 65 bal yüksəlmişik. Məntiq, riyaziyyat fənlərinin mənimsənilməsi ilə bağlı nəticələrsə 2022-23-cü illərdə açıqlanacaq. Yüksək nəticələr əldə edilməsi üçün təkcə müəllimlər qarşısına tələb qoymaq düzgün deyil. Bu sahədə universitetlər, institutlar işləməli, ciddi fəaliyyət göstərməlidirlər.

**Məlahət Rzayeva**



## Gözmuncuğu formasında dolu yağdı

### Sakinlər heyrətləndi, dolu dənələri həm də gec əriyib

**Türkiyənin Osmaniyyə bölgəsi Qədirli əyalətində gözmuncuğu formasında dolu düşüb. Qədirli sakinləri, necə deyərlər, göydən ”gözmuncuğu” yağmasını heyrətlə izləyib.**

”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, qəribə formalı dolu daha çox Qədirlinin Cığcık kəndinə düşüb. Dolu yağışdan sonra başlayıb. Kənd sakinləri ”gözmuncuğu” dolunun fotosunu şəkərək paylaşıblar. Kənd sakini Əli Ağgöllü İHA müxbirinə deyib ki, yağışdan sonra dolu düşməyə başlayıb və əhali dolunun qəribə formalı olduğunu fərq edib, ovuclarına aldıqda dolunun dənələrinin adi gözmuncuğu kimi olduğunu görüblər. Dolu dənələri həm də çox möhkəm olub, uzun müddət ovuc içində qalsalar da tez əriməyiblər. Sakinləri heyrətləndirən həm də bu olub.

**Məlahət**

## COVİD pasportları çip şəklində bədənə yerləşdiriləcək

### Ölkənin 6 mindən çox sakini bu çipi bədəninə yeridib




**İsveçin ”Epicenter” şirkəti dəri altına implantasiya edilən COVID-pasportları olan mikroçiplər hazırlayıb.**

Medicina.az xəbər verir ki, düyü dənəsi ölçüsündə olan implant şəxsin peyvənd məlumatı üçün skan edilə bilər. Bundan əlavə, çiplərdə müqavilələr, avtobus biletləri və hətta idman zalında üzvlüyə aid məlumatlar saxlanıla bilər.

Ölkənin 6 mindən çox sakini bu çipi bədəninə yeridib.

İstehsalçı şirkət əmin edir ki, prosedur təhlükəsizdir və zəruri hallarda implantlar çıxarıla bilər.

## Meymun gəmidəkiləri bir-birinə qatdı

### Gəmiyə necə, nə vaxt mindiyini görən olmayıb



**Kral Donanmasına mənsub gəminin göyərtəsində görünən meymun gəmi heyətini çaş-baş salıb.**

**Qucağında balasını daşıyan meymunun gəminin göyərtəsinə necə, nə vaxt mindiyini görən olmayıb. ”Şərq” xarici mediaya istinadən xəbər verir ki, ana meymun balasıyla Barbados, Bridgetowndakı ”RFA Wave Knight” yük gəmisinə minib. Gəmi Atlantik okeanında Grand Turk Adası sahilinə yan alırmış. Qaydalara əsasən göyərtədə hər hansı heyvan olarkən limana yan almaq qadağan olduğundan gəmi heyəti meymunu tutmağa çalışsalar da, bacarmayıblar. Gəmi heyəti göyərtədə meymunun ardınca o tərəf-bu tərəf qaçıb. Sonunda meymun dənizə tullanıb. Bu, primat cinsindən meymundur. Onlar sahilə doğru üzərkən müşahidə edilib. Meymun dənizə atlandığı və boğulmaq təhlükəsi ilə üzləşdiyi üçün Kral Donanmasına gələn təpkilərə isə sonuncular ”vəhşi təbiətə qarşı məsuliyyətimizi qəbul edirik və heyvanlara yardım etməyə çalışırıq” şəklində cavablandırıb.**

**Məlahət**

## Misirdə nadir təbiət hadisəsi

### İsgəndəriyyə qar örtüyünə bürünüb



**Misir üçün nadir olan təbiət hadisəsi baş verib. Azərtac xəbər verir ki, bu ölkənin Aralıq dənizi sahilində yerləşən İsgəndəriyyə şəhəri qar örtüyünə bürünüb.**

**Havaların kəskin soyuması və qar yağması İsgəndəriyyə və Dəxilə limanlarının da bağlanmasına səbəb olub. İsgəndəriyyə Liman İdarəsinin rəisi bildirib ki, gəmilərin təhlükəsizliyini təmin etmək üçün əlavə tədbirlər görülür. Qarla yanaşı, dənizdə güclü külək də problemlər yaradıb. Qarlı hava şəraiti ilə əlaqədar Misirin Təhsil Nazirliyi İsgəndəriyyə və Port-Səid şəhərlərində məktəblərin bağlanması barədə qərar qəbul edib.**

## Koronaya tutulmuş qadının dırnaqları işıq saçır



**Rusiyada noyabrda koronaya yoluxub sağalmış qadının dırnaqlarında qəribə simptomlar baş verib.**

**Medicina.az xəbər verir ki, koronadan müalicə alan 35 yaşlı qadın dırnaqların dibində plastinin sarı limon rəngi aldığını görüb.**

**Əlini gündüz işığına tutduqda bu rəng aydın görünürdü. Həkimlərə göstərsə də həkim heç bir ciddi dəyişiklik olmadığını bildirib. Lakin gecə klubunda bilyard oynayan zaman qadın dırnaqlarının fosforlaşıb işıq saçdığını görür.**

**Qadın bu haldan qorxuya düşərək, kovidin bədənində hansı dəyişiklik yaratdığını araşdırmaq istəyir.**



# Türk professor xəbərdarlıq etdi

### 3 peyvənd belə “Omicron” variantına qarşı təsirli deyil





**Məlahət Rzayeva**

**BioNTech şirkətinin qurucusu, immunoloq-həkim, professor Uğur Şahin Fransanın ”Le Monde” qəzetinə açıqlamasında COVİD-19 əleyhinə hazırda istifadə edilən peyvəndlərin ”Omicron” variantına qarşı kifayət qədər təsirli olmayacağını bildirib.**

”Şərq” ”HaberTürk”ə istinad xəbər verir ki, U.Şahin ”hətta 3 peyvəndin belə, virusa yoluxdurmanın qaşısını almadığını diqqətə almalıyıq. Bu peyvəndlər ilk virusa qarşı 95 faiz təsirli idisə, ”Omicron” ştammı ilə bağlı eyni nəticəni gözləyə bilmərik. Bu nəticələrə çatmağımıza hələ çox var”, söyləyib. Bununla belə professor İngiltərə və Cənubi Afrikadan gələn məlumatların ”ümidverici” olduğunu qeyd edib. Cənubi Afrikada 2 doza vurulan Pfizer/BioNTech peyvəndinin xəstəliyin ağır gedişatından 70 faiz qoruduğu müəyən edilib. 2 doza peyvənd vurduranlar arasında xəstəxanaya gətirilənlər azlıq təşkil edib. U.Şahin sonrakı tədqiqatlarını artıq laborator nəticələrə görə deyil, real faktlara əsasən aparacağını deyib. Professor COVİD-19 testlərinin davam etdirilməsini vacib hesab edir: ”Əks təqdirdə yeni variantın sürətini nəzarət altında saxlaya bilməyəcəyik”. Qeyd edilir ki, alman şirkəti BioNTech ”Omicron”un spayk proteini və onun 32 mutasiyasını antigen olaraq istifadə edərək yeni varinata qarşı yeni peyvənd hazırlayır. U.Şahin yeni peyvəndin 2022-ci ilin martında hazır olacağını düşünür.

*Qeyd edək ki, U.Şahinin qurucusu olduğu şirkət ”Pfizer”lə bərabər ”Moderna” peyvəndinin istehsalçısıdır.*



# Bakıda taksidə qəribə olay

### Qadın kişini evinə dəvət etdi



**Bakıda taksidə növbəti dəfə əxlaqsız təklif edilib. ”Azxəbər” məlumat xəbər verir ki, sosial şəbəkədə yayılan videoda xanım müştərinin taksi sürücüsünü evinə dəvət etdiyi bəlli olur.**

**Sürücü isə ona evli olduğunu deyir və mədəni şəkildə bu təklifdən imtina edir.**

*Xanım isə cavabında:* ”Sənin avtomobilinin nömrəsini götürdüm. Şikayət edəcəm ki, sən mənə əxlaqsız təklif etmisən” deyir.

Bəzi istifadəçilər bu videonun həqiqət olduğuna inanmadıqlarını yazıblar.

*Taksi sürücüsü Mahir Əliyevlə əlaqə saxlanılıb.*

**O hadisə haqqında deyib:**

- Hadisə gece saatlarında baş verdi. Xanım yolda əl etdi, saxladım, maşına əyləşdi. Daha sonra başladı danışmağa, məndən nömrəmi istədi, dedi başqa bir-iki yerə dəyməliyik. Dedim, xanım gecdir, mən artıq evə getməliyəm. Hansı ünvana deyirsinizsə, sizi düşürüm, çünki evə getməliyəm. Sonra yolda saxlatdırdı, köşkdən nələrsə aldı, gəldi maşına əyləşdi. Daha sonra yenə başladı belə danışmağa. Mən ondan şübhələndim, qeyri-adi nəsə var idi, videonu açdım ki, nəsə olsa əlimdə sübut olsun. Sonra məndən şəxsi məlumatlarımı maraqlanmağa başladı.

*Sürücü deyib ki, ünvana çatanda ona əxlaqsız təklif edilib:*

”Sonra ünvana çatanda dedi ki, təkəm, sizlə birlikdə getmək olar? Mən də təbii ki, imtina etdim. Dedi, səndən şikayət edəcəm. Hələ maşınımın nömrəsini də çəkdi. Ondan sonra 3 gün keçib, şikayət-filan olmayıb. Mən gözlədim nəsə edərsə, bu video əlimdə sübut kimi olsun, paylaşmaqda məqsədim də o oldu ki, taksi sürücüləri bunu görüb maariflənsinlər, daha tədbirli olsunlar”.

## Alimlər açıqladı!

### Koronavirusa qarşı çox xeyirlidir



**Dünya koronavirus epidemiyasıyla mübarizə apardığ bir zamanda alimlərdən sevindirən bir araşdırma xəbəri gəldi. Ölkəmizdə də olduqca çox olan bu meyvənin koronaya qarşı müsbət təsir etdiyini bilirdinizmi?**

“Şərq”-ə xarici media istinadən xəbər verir ki, yapon alimləri virusla mübarizədə ümid ola biləcək bir elmi işə imza atıblar. Yaponiyanın Kashihara şəhərindəki Nara Tibb Universitetindən bir araşdırma qrupu, xurmadan əldə edilən maddnin Covid-19-a qarşı təsirli olduğunu və ya ciddi semptomların inkişaf etmə ehtimalını aşağı saldığını üzə çıxarıb.

Əsasən Çin və Yaponiyada yetişən və ölkəmizdə ”cənnət meyvəsi”, ya da ”cənnət xurması” kimi tanınan meyvənin ehtiva etdiyi zəngin A, C, B1, B2 və B3 vitaminləri, karbonhidrat, fosfor, zülal, kalsium, dəmir, natrium, kalium və maqnezium səbəbiylə ürək xəstəlikləri, xərçəng kimi ciddi xəstəliklərə qarşı da müdafiə qabiliyyəti olduğu ifadə edilir.

**Turan**

## “Tox acın halından nə anlar ki?"

### Hülya Avşarın “lazım gələrsə, simit yeyəcəyik” sözlərinə sərt reaksiya gəldi



**Türkiyədə lirənin digər valyutalarla müqayisədə dəyər itirməsinə reaksiya verənlərdən biri də müğənni, aktrisa Hülya Avşar olub.**

Axşam.az xəbər verir ki, ifaçı ölkənin iqtisadi vəziyyətinə ”Ayağımızı yorğanımıza görə uzatmalıyıq. Lazım gələrsə, simit yeyəcəyik” deyə, münasibət bildirib. Onun bu sözləri sosial media istifadəçiləri tərəfindən bir mənalı qarşılanmayıb.

Hülyanın ünvanına ”Bizim adımızdan danışmaq səlahiyyətini sənə kim verib?”, ”Yaşam tərzimizə sənmi qərar verməlisən?”, ”Bunu deyən Hülya Avşar ötən il qızına 55 milyonluq ada alıb”, ”Simitin qiymətini ucuz bilir deyəsən”, ”Tox acın halından nə anlar ki”, ”Vergi ödəmirik ki, simit yeyək” kimi sərt reaksiyalar gəlib.

*Bundan başqa bir neçə gün əvvəl 5 milyon lirə (təxminən 542 min manat) dəyərində ”Mercedes S400” aldığını xatırladanlar onun bu fikirlərində səmimi olmadığının qənaətinə gəlib.*